UNI-41_27 IYUI-QARA.qxd 11/23/2023 10:56 PM Page 1

UNIKAL

№43 (2177) 24 noyabr 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru



# Növbəti sərhəd görüşü olacaq: Sülh üçün yol açılır, yoxsa...



Səh.9

# Samir Şərifovun müəmmalı cavabı

*Bu günlərdə Azərbaycanın maliyyə naziri Samir Şərifov yerli mətbuata müsahibəsində maraqlı bir fikir səsləndirib. O, APA-nın "2024-cü ilin büdcə layihəsində səhmlərində dövlətin payı olan cəmi 2 şirkətin büdcəyə dividend ödəməsi proqnozlaşdırılır. Bu şirkətlər Azərbaycan Beynəlxalq Bankı (150 milyon manat) və Azərbaycan Dövlət Neft Şirkətidir ( 408 Milyon manat). Digər dövlət şirkətləri hansı səbəbdən büdcəyə dividend ödəmir" sualına cavab olaraq deyib: "Səhmlərində dövlətin payı olan şirkətlərin dövlət büdcəsinə dividend ödəməsi ilə bağlı hökumət hal-hazırda müəyyən metodoloji əsaslar üzərində işləyir. Nə zaman ki, dövlət şirkətlərinin büdcəyə dividend ödəməsi ilə bağlı metodologiya hazır olacaq, o zaman biz bütün suallara cavab verə biləcəyik".*

Səh.8

## "Rayonlarda iş yerlərinin açılması vacib məsələdir"



*Böyük Quruluş Partiyasının başqanı, deputat Fazil Mustafa "Unikal"a müsahibə verib. O, uşaqlar üçün nəzərdə tutulan müavinətlərin artırılmasından, rayonlardakı işsizlik problemindən, müharibə veteranlarının təqaüdünün qaldırılmasından və başqa məsələlərdən danışıb.*

Səh.4

## "Yeni qaydalar pensiyalara əlçatanlığı artıracaq" - Deputat



*"Nazirlər Kabineti əmək pensiyalarının hesablanması qaydasına dəyişiklik edilməsi ilə bağlı qərar qəbul edib. Bu qərarla bir sıra sənədlərin pensiya müəyyənləşdirilən zaman təqdimatına ehtiyac yoxdur". Bunu "Unikal"a açıqlamasında deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə...*

Səh.7

## Mikayıl Cabbarov: "Azərbaycanın xarici borcu ÜDM-in 10 faizi civarındadır"



*Azərbaycanın azad edilmiş ərazilərində aparılan yenidənqurma və bərpa işlərinə indiyədək dövlət büdcəsindən 7 milyard dollar sərf edilib. Gələn il üçün 2,4 milyard dollar ayrılması nəzərdə tutulur. "Unikal" xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov noyabrın 23-də SPECA...*

Səh.4

UNI-41_27 IYUl-QARA.qxd 11/23/2023 10:56 PM Page 2



# Tərana Qumral: "Hər kəs ki, yalandan özünə xəstəlik adı qoyursa..."



***Xəbər verdiyimiz kimi, ötən ay müğənni Təranə Qumral həyat yoldaşı Musa Musayevin infarkt keçirdiyini açıqlamışdı.***

Müğənni Nazənin isə qalmaqal yaşadığı cütlüyün reklam xatirinə yalan danışdığını iddia etmişdi. Bu gün "Həmin Zaur" verilişində qonaq olan Təranə Qumral onu yalan danışmaqda ittiham edən həmkarına belə cavab verib:

"Hər kəs ki, yalandan özünə xəstəlik adı qoyursa, buradan deyirəm və özü də bilir ki, ismarıcım kimədir. Allah özünün canına xəstəlik qismət etsin".

Qeyd edək ki, Nazəninlə Təranə Qumral arasında qalmaqal ANS-də yayımlanan "Bazar səhəri" verilişində başlamışdı. Tərəflər bir-birinin ünvanına təhqiramiz sözlər işlətmişdi. T.Qumral Nazənini onun həyat yoldaşı Musa Musayevlə sevgili olmaqda günahlandırmışdı.

# Güneldən hədə dolu mesaj: "Hamısını deyəcəyəm"



***"Acı gerçəkləri bir də məndən dinləyin. İbrahim Tatlısəs deyə bir məktəb var. Bizlər də onun tələbələriyik".***

"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri müğənni Günel Zeynalova sosial şəbəkə hesabında yazıb. Sənətçi son günlər tənqid edilən İbrahim Tatlısəsi müdafiə edib

Günel daha sonra hazırladığı yeni albomdan yazıb: "Həyəcanlıyam, xoşbəxtəm. Allahın insanın xəyalını gerçəkləşdirdiyi o an var. İndi həmin andır və mən parıldayıram. Nələrəsə, kimlərəsə və əngəllərə baxmayaraq 18 ədəd bir-birindən dəyərli əsəri səsləndirdim. Bu işdə ən böyük dəstəkçim İbrahim Tatlısəs oldu. Kimlərlə işlədim hamısını deyəcəyəm".



# "Rəhim işimi hər yerdə əngəlləyirdi" - Kərim Abbasov

***Müğənni Kərim Abbasov mərhum həmkarı Rəhim Rəhimli ilə bağlı qalmaqallı açıqlama verib.***

Axşam.az xəbər verir ki, sənətçi "Xəbərin var?" proqramında R.Rəhimli ilə aralarında illərlə davam edən qalmaqaldan söz açıb. O bildirib ki, mərhum müğənni onun yolunu kəsib:

"Aramızda sənət rəqabəti var idi. İkimiz də şoumen idik. Efirdə adım çəkiləndə onda qıcıq yaranırdı və bunu hətta büruzə də verirdi. Hətta Rəhimlə keçmiş "Lider TV"də çalışanda "torbamı" tikənlərdən biri də o oldu. Rəqabətimiz onunla güclü olub. Onunla heç bir şəxsi zəmində problemimiz olmayıb. Sırf sənət üstündə küsülülüyümüz olub. Bizdə sağlam rəqabət olub. İşimi burmayıb, vurmayıb da. O, mədəni sürətdə işimi əngəlləyib. Allah ona rəhmət elesin".

# Türkanə efirdə ev hədiyyə etdilər

***Müğənni Türkan Vəlizadəyə efirdə ev hədiyyə olunub.***

"Unikal" bizim media-ya istinadla xəbər verir ki, sənətçi bununla bağlı məlumatı qonaq olduğu "7 tamam" axşam şousunda alıb. Sənətçiyə Yasamal ərazisində yerləşən çoxmərtəbəli yeni tikili binaların birində 100 kvadratlıq təmirsiz məzil hədiyyə olunub. Əlavə edilib ki, mənzil tam təmir olunaraq Türkanə təhvik veriləcək.





Evin görüntüləri proqramda yayımlandıqdan sonra Vəlizadəyə mənzilin açarları təqdim olunub. Lakin Türkan bu bahalı hədiyyədən imtina edib: "Çox təəccübləndim. Bir sıra pərəstişkarlar istəyirlər ki, onların sevdiyi sənətçilər gözəl evlərdə yaşasınlar. Şükürlər olsun ki, əziyyətlə çalışıb pulumuzu qazanıb, özümüzə hansısa bir şərait qura bilirik. Mən tanımadığım insanlardan hədiyyə qəbul etmirəm. Bəlkə də o insanın özü buraya gəlsəydi və bu hədiyyəni mənə təqdim etsəydi heç olmasa bilərdim ki, kimdir...

Mən məzil hədiyyə verəcək insanı isə yaxından tanımaq istəmərəm. Çünki mənə ev lazım deyil. Şükürlər olsun ki, evim var. Valideynlərimlə birgə o evdə yaşayıram. Mənə sevgi lazımdır. Qadın sevgisi, istəyi, diqqəti... Mən heç mənə ev hədiyyə edən o insanın ailəli və ya subay olduğunu da bilmirəm. Heç nə istəmirəm. Bəlkə bu insan üzüklə studiyaya gəlsəydi...

Mən hu hədiyyəni qəbul etməyəcəyəm. Amma onu da deyim ki, məni heç kim heç zaman hədiyyələrlə üreyimi ala bilməz. Bu mümkün deyil. Çünki, dünya malı dünyada qalacaq. Mənə isə dəyər, sevgi lazımdır. Əgər bu insanın fikri ciddidirsə, o zaman özünü təsdiqləsin".

Verilişin gedişatında Türkan sevgilisinin olmadığını vurğulayıb.

UNI-41_27 IYUl-QARA.qxd 11/23/2023 10:56 PM Page 3



# Bayramov və Mirzoyanın görüşü planlaşdırılmır



***Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin yaxın vaxtlarda görüşü planlaşdırılmır.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan xarici işlər nazirinin müavini Mnatsakan Səfəryan bildirib.

O, qeyd edib ki, noyabrın 30-da Ermənistan və Azərbaycanın dövlət sərhədində demarkasiya komissiyasının növbəti iclası keçiriləcək.

***Ağarza Elçinoğlu***

# Nazirlikdən torpaq almaq istəyənlərə xəbərdarlıq

***"Bəzən tikinti məqsədləri üçün ayrılmayan torpaq sahəsində fərdi yaşayış evinin tikintisinə cəhd edilir. Bu halda inşa edilən ev özbaşına tikinti sayılır və həmin fərdi yaşayış evinin mülkiyyət hüququ verən çıxarışla təmin edilməsi mümkün olmur. Fərdi yaşayış evinin tikintisi üçün torpaq sahəsi alarkən həmin torpaq sahəsi üzrə hüquqların daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatdan keçib-keçməməsi müəyyən edilməlidir"?.***

"Unikal" xəbər verir ki, bu barədə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin yaydığı məlumatda bildirilib.

Bildirilib ki, torpaq sahəsi üzərində hüquqlar dövlət reyestrində qeydiyyatdan keçməyibsə və hüquqlar daşınmaz əmlakın dövlət reyestrindən çıxarışla rəsmiləşdirilməyibsə, həmin torpaq sahəsinin notarial qaydada alqı-satqısı mümkün deyil.

"Həmçinin, torpaq sahəsinin yaşayış məntəqələrinin torpaqları kateqoriyasına və təyinatının isə həyətyanı məqsədlər üçün nəzərdə tutulan torpaq sahələrinə aid olub-olmaması aydınlaşdırılmalıdır.

Vətəndaşlar mülkiyyətində olan torpaq sahələrində fərdi yaşayış evinin tikintisinə başlamamışdan öncə tikiləcək fərdi yaşayış evinin memarlıq-planlaşdırma və tikinti ərazisinin baş planı bölmələrinin hazırlanmasını təmin etməlidir. Qeyd edək ki, memarlıq-planlaşdırma və tikinti ərazisinin baş planını yalnız Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş və layihələndirmə fəaliyyəti ilə məşğul olmaq üçün xüsusi razılıq (lisenziya) alan hüquqi və ya fiziki şəxslər həyata keçirə bilərlər.

Şəhərsalma və Tikinti Məcəlləsinin 80-ci maddəsinə əsasən, mülkiyyətində, icarəsində və ya istifadəsində olan torpaq sahəsində təyinatı üzrə yerüstü mərtəbələrinin sayı 3-dən, hündürlüyü 12 metrdən və aşırımlarının uzunluğu 6 metrdən çox olmayan fərdi yaşayış evlərinin tikintisi ilə bağlı məlumatlandırma icraatı həyata keçirilir. Dövlət Xidmətinin məlumatına görə, müvafiq tələblərə uyğunluğunun yoxlanılması üçün tikinti obyektlərinin layihəsinin memarlıq-planlaşdırma və tikinti ərazisinin baş planı bölmələri, habelə torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənədin surəti yerli icra hakimiyyəti orqanına təqdim olunur.

10 gün müddətində layihəyə dair irad təqdim edilmədikdə, tikinti işlərinə başlanıla bilər", - məlumatda qeyd olunub.

# "Rusiya üçün təhlükə yaradan Aİ-dir" - Kreml



***"Rusiya Avropanı təhdid etmir, əksinə, Avropa İttifaqı Rusiya Federasiyası üçün təhlükə yaradır".***

"Unikal" xəbər verir ki, bunu Kremlin sözçüsü Dmitri Peskov bildirib.

Prezidentin sözçüsü qeyd edib ki, Aİ ABŞ-nin nəzarəti altındadır və Rusiya sərhədlərinə yaxınlaşan NATO-da iştirak edir. "Bu, açıq-aşkar faktdır və mübahisə etmək mümkün deyil. Bu, bizim üçün təhlükə yaradır", - Peskov qeyd edib.

Peskov həmçinin qeyd edib ki, son bir neçə ildə Praqadan çoxlu isterik bəyanatlar gəlir və bu, Çexiya rəhbərliyinə heç də xoş görünmür.

Xatırladaq ki, bundan əvvəl Çexiya prezidenti Petr Pavel Rusiyanı Avropa İttifaqı üçün əsas təhlükə adlandırmışdı. Onun sözlərinə görə, Avropa ölkələrinin orduları Rusiya Federasiyasına ciddi yanaşır və yüksək intensivlikli münaqişəyə hazırlaşır.

***Gülayə Mecid***

# Samir Şərifovun müəmmalı cavabı

## Rəhbərlərinin özlərinə böyük biznes qurduğu dövlət şirkətlərinin dividend ödənişi ilə bağlı vaxtında hərəkətə keçmək olmazdımı?

***Bu günlərdə Azərbaycanın maliyyə naziri Samir Şərifov yerli mətbuata müsahibəsində maraqlı bir fikir səsləndirib. O, APA-nın "2024-cü ilin büdcə layihəsində səhmlərində dövlətin payı olan cəmi 2 şirkətin büdcəyə dividend ödəməsi proqnozlaşdırılır. Bu şirkətlər Azərbaycan Beynəlxalq Bankı (150 milyon manat) və Azərbaycan Dövlət Neft Şirkətidir ( 408 Milyon manat).***

Digər dövlət şirkətləri hansı səbəbdən büdcəyə dividend ödəmir" sualına cavab olaraq deyib: "Səhmlərində dövlətin payı olan şirkətlərin dövlət büdcəsinə dividend ödəməsi ilə bağlı hökumət üzrə nəzərdə tutulub ki, bundan da 8 ay ərzində büdcəyə ödəniş olmayıb.

Səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan (nizamnamə kapitalının 75 %-i) "Azər Türk Bank" ASC-nin xalis mənfəətinin 2021-ci ildə 0,5 milyon manat, 2022-ci ildə 12,1 milyon manat təşkil etməsinə baxmayaraq, 2021-2022-ci illərdə və 2023-cü ilin 8 ayı ərzində dividend ödənişi həyata keçirilməyib ki, nəticədə bu il yanvarın 1-nə 14,7 milyon manat bölüşdürülməmiş mənfəət mövcud olub.

"Ümumiyyətlə, bu mənbə üzrə mövcud potensialın daha effektiv istifadəsi və proqnozlaşdırılmış dividendlərin ödənməsində mümkün risklərin minimuma endirilməsi məqsədilə səhmlərində dövlətin payı olan müəssisələrin idarəetmə orqanları (Müşahidə Şuraları, İdarə Heyətləri və s.) ilə birgə müzakirələr əsasında müvafiq təhlillərin aparılması, həmçinin "Azər Türk Bank", "Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi" və "Azər Gold" tərəfindən dividend ödənişi nəzərdə tutulmasını məqsədəuyğun hesab edirik", - deyə rəydə qeyd olunub.

Göründüyü kimi, Hesablama Palatası Azərbaycanda dövlət mülkiyyətində olan bəzi müəssisələrdən dividend ödənişinin tutulmasını məqsədəuyğun saysa da, maliyyə naziri Samir Şərifov bunun üçün müəyyən metodoloji əsasların hazırlanmasından danışıb və əlavə edib ki, nə zaman həmin metodologiya hazır olacaq, o zaman da bu mövzuda yaranan bütün suallara cavab vermək mümkün olacaq.

Xatırladaq ki, 2020-ci ildə "Azərbaycan İnvestisiya Holdinqi" yaradılıb, nəticədə dövlət şirkətlərinin, dövlət müəssisələrinin, yaxud dövlət payı olan təsərrüfat cəmiyyətlərinin vahid prinsiplər əsasında idarə edilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən həyata keçirdikləri investisiya proqramlarının şəffaflığının və iqtisadi səmərəsinin yüksəldilməsi, onların rəqabət qabiliyyətinin təmin olunması, maliyyə sağlamlığının və dayanıqlılığının yaxşılaşdırılması bu quruma tapşırılıb.

Bu günlərdə iqtisadiyyat naziri Mikayıl Cabbarov da bildirib ki, qarşıdakı mühüm vəzifələrdən biri dövlət şirkətlərinin fəaliyyətini yenidən



qurmaqla onların fəaliyyətinin səmərəsini artırmaq və dövlət büdcəsinə divident ödənişinin edilməsini aşılamaqdır: "Bu, İnvestisiya Holdinqinin yaradılması ilə dövlət şirkətlərinin fəaliyyətində əldə olunmuş nəticələrlə köklü bağlıdır. Təsadüfi deyil ki, ötən il Holdinqə daxil olan 12 şirkətdən artıq 8-i divident ödəmək qabiliyyətinə malikdir. Həmin şirkətlərin cəmi əməliyyat mənfəətliliyi artıq 15 milyard manatı keçib. Bu göstərici 2020-ci ildə 4-5 milyard manat ətrafında olub... Növbəti illərdə digər dövlət şirkətləri üzrə də divident siyasətinin hazırlanmasını vacib hesab edirik".

Belə aydın olur ki, artıq dövlət şirkətlərinin dividend ödənişləri məsələsi hökumətdə yüksək səviyyədə müzakirə olunur. Lakin sual yaranır: Samir Şərifovun rəhbərlik etdiyi nazirlik niyə indiyədək bu istiqamətdə konkret təşəbbüslərlə çıxış etməyib, hansısa metodologiyanın hazırlanması zərurəti nə üçün yalnız son zamanlarda anlaşılıb? Media uzun illərdir bir sıra dövlət şirkətlərinin rəhbərləri özlərinə nəhəng biznes imperiyası yaratdığı halda, həmin şirkətlərin, müəssisələrin ziyanla işlədiyi, büdcə üzərində yükə çevrildiyi haqqında yazırdı. Üstəlik, iqtisadçı ekspertlər, sahə mütəxəssisləri də bu barədə iradları dilə gətirirdilər. Aidiyyatı qurumlar, o cümlədən, Şərifovun nazirliyi sözügedən məsələ ilə bağlı vaxtında hərəkətə keçə bilməzdilərmi?!

hal-hazırda müəyyən metodoloji əsaslar üzərində işləyir. Nə zaman ki, dövlət şirkətlərinin büdcəyə dividend ödəməsi ilə bağlı metodologiya hazır olacaq, o zaman biz bütün suallara cavab verə biləcəyik".

Bəs maliyyə nazirinin bu cavabında diqqətçəkən məqam nədir?

Məsələ burasındadır ki, Hesablama Palatasının "2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinə verdiyi rəydə Azərbaycanda dövlət mülkiyyətində olan bəzi müəssisələr ötən il mənfəət əldə etsə də, dövlət büdcəsinə dividend ödənişi vurğulanmışdı.Sənədə əsasən, bu il dövlət qeyri-maliyyə təşkilatlarından alınacaq dividendlərin 15 milyon manatı "Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi" QSC, 5 milyon manatı isə "Azər Gold" QSC

***Toğrul Əliyev***

# Növbəti sərhəd görüşü olacaq: Sülh üçün yol açılır, yoxsa...

***Bir müddət əvvəl Azərbaycan Ermənistana sərhədyanı bölgədə təkbətək görüş keçirilməsini təklif etmişdi. Noyabrın 22-də rəsmi İrəvan sərhədlərin delimitasiyası üzrə komissiyanın iclasının keçirilməsinə razılıq verib.***

"Unikal"ın məlumatına görə, Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə bildirib ki, əldə olunan razılaşmaya əsasən, noyabr ayının 30-da Azərbaycan ilə Ermənistan arasında sərhəd bölgəsində sərhədlərin delimitasiyası üzrə dövlət komissiyalarının növbəti 5-ci iclası keçiriləcək. Komissiyaların iclasının keçiriləcəyini Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ani Badalyan da təsdiqləyib. Onun sözlərinə görə, danışıqlar Azərbaycan-Ermənistan sərhədində baş tutacaq. Lakin təfərrüat açıqlanmayıb. Yəni görüşün 30 noyabrda baş tutacağı bildirilsə də, sərhədin məhz hansı hissəsində olacağı haqda heç bir məlumat yoxdur.

Bəzi şərhçilərin fikrincə, sərhəd komissiyalarının növbəti görüşündə anklavlar kəndlər məsələsi də müzakirə predmeti ola bilər. Çünki bu məsələ son günlər bir neçə dəfə Ermənistan baş naziri Nikol Paşinyan tərəfindən gündəmə gətirilib. Əksər ekspertlərin qənaətincə, delimitasiya komissiyasının iclasının sərhəddə baş tutması sülh müqaviləsinin imzalanması üçün münbit şəraitin təmin edilməsi baxımından faydalı ola bilər.



Məsələ ilə bağlı "Unikal"a açıqlama verən politoloq Qabil Hüseynli bildirib ki, delimitasiya prosesinin aparılmasına dair iclasın keçirilməsi sülh sazişinin imzalanması üçün vacib addım kimi qiymətləndirilə bilər: "Delimitasiya proseslərinə aydınlıq gətirmədən sülh müqaviləsinin imzalanması çox çətin olar. Mən güman edirəm ki, komissiya delimitasiya proseslərinə dair iclasların keçirilməsinə başlayıbsa, deməli, müəyyən irəliləyişlər ola bilər. Yaxud da, ən azından delimitasiya proseslərinin hansı sənədlər əsasında aparılacağını razılaşdırmaq olar. Bir sözlə, bu prosesi uğurlu bir addım kimi qiymətləndirmək lazımdır".

Politoloq delimitasiya prosesində hansı xəritələrdən istifadə oluna biləcəyindən də danışıb: "Əsas məsələlərdən biri xəritələrin müəyyənləşdirilməsidir. Məncə burada topoqrafik, hərbi xəritələr mühüm rol oynayacaq. Ermənistanın bununla bağlı bir təklifi var. Onlar 1975-ci il xəritələri əsasında delimitasiya prosesini aparmağı təklif edirlər. Azərbaycan isə 1918-ci ildən bu günə qədər olan xəritələrin ortaya çıxarılmasını istəyir. Burada müəyyən fikir ayrılıqları var. Hər halda, zənnimcə, razılaşma mümkün ola bilər", - deyə o qeyd edib.

Politoloq Elxan Şahinoğlu isə hesab edir ki, Ermənistan-Azərbaycan sərhədində delimitasiya komissiyasının bir iclasından nəticə gözləmək doğru olmaz. Onun fikrincə, bu, fərqli maraqları olan müxtəlif vasitəçi dövlətlərdə keçirilən müzakirələrdən daha faydalıdır: "İl bitmək üzrədir, vasitəçilərin iştirakıyla keçirilən görüşlərdən nəticə çıxmadı. Danışıqların Vaşinqton, Brüssel və Moskva formatı Minsk Qrupu həmsədrlərini xatırlatmağa başlayıb. Bu gedişat nəticə verməyəcək. Birbaşa danışıqlara və müzakirələrə hədəflənmək lazımdır, iki ölkənin birgə işçi qrupunun formalaşmasına ehtiyac var".

Siyasi şərhçi Asif Nərimanlı isə deyib ki, son addımlar onu göstərir ki, İrəvan Bakının danışıqların ikitərəfli əsasda başlanması və görüşün "qarşılıqlı məqbul məkanda və ya dövlət sərhədində baş tutması" təklifinə cavab verib: "Cavabda qeyd olunur ki, "iki ölkə arasında sülhün bərqərar olması üçün real imkan var və bu, hər iki tərəfdən siyasi iradə olarsa, reallaşa bilər". Və "bu iradənin nümayişi" kimi Azərbaycana təklif edirlər ki, dövlət sərhədində hər iki ölkənin delimitasiya-demarkasiya komissiyalarının iclası keçirilsin. Bakı və İrəvan başqa-başqa məsələlərdən danışır. Azərbaycan təklif edir ki, sülh danışıqları dövlət sərhədində, yaxud hər iki tərəfin qəbul edəcəyi məkanda vasitəçisiz baş tutsun. Ermənistan təklif edir ki, sərhəddə demarkasiya komissiyalarının iclası keçirilsin".

O hesab edir ki, əslində, İrəvanın Bakıya ünvanladığı bəyanat cavab yox, təklifdən ibarətdir. "Bu isə Bakının "ikitərəfli format" istəyini yaxına buraxmaq istəmədiklərini göstərir. Ermənistan XİN-in bəyanatının mətni də danışıqların Qərb platformasında keçirilməsindən yana olduqlarını təsdiq edir. Demarkasiya komissiyalarının iclasının sərhəddə keçirilməsi təklifi isə Vaşinqtonun qarşısında "sülhdən qaçan" tərəf kimi görünmək istəməmələridir. İkitərəfli formatda görüşü ABŞ təklif edib. Azərbaycan bu formatı əvvəldən dəstəkləyir, hətta məkan kimi bölgədə vasitəçilik uğrunda mübarizə aparan Qərb və Rusiya masasını yox, Tbilisini təklif edib. Bu formatla bağlı son çağırışdan sonra rəsmi Bakı sülh danışıqlarının dövlət sərhədində keçirilməsi ideyasını irəli sürdü. Bu ideya Azərbaycan-Ermənistan danışıqlarında bir ilkdir. Bakı bununla həm də Qərb masasından imtina etməsinin Rusiya ilə bağlı olmadığını nümayiş etdirir. Ermənistan isə "demarkasiya komissiyalarının iclası"nı irəli sürməklə həm Bakının təklifinə cavab verdiyini göstərir, həm ABŞ-ın çağırışını dəstəklədiyini. Hərçənd, dövlət sərhədində sülh danışıqları təklifinə demarkasiya komissiyalarının iclası təklif ilə cavab vermək İrəvanın prosesi manipulyasiya etmək cəhdindən başqa bir şey deyil" - deyə A.Nərimanlı fikrini tamamlayıb.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Bakıvaxtı.az-a açıqlamasında deyib ki, Azərbaycanın mövqeyi dəqiqdir və ortadadır.

Onun sözlərinə görə, rəsmi Bakı sülhün əldə olunmasını istəyir: "Azərbaycan bir dövlət kimi Cənubi Qafqaz regionunda sülhün ən yüksək səviyyədə təmin olunması üçün çalışır, fəaliyyət göstərir. Bakı hansısa ölkənin göstərişi, yaxud fikri ilə, kiminsə maraqları naminə hərəkət etmir. Azərbaycan öz milli maraqlarını və ölkənin müstəqilliyini əsas götürərək, regionda davamlı və qalıcı bir sülhün bərqərar olunması istiqamətində addımlar atır. Belə bir məqamda Bakının sülh danışıqları ilə bağlı təkliflərindən imtina edilməsi dünya ictimaiyyəti, regional vəziyyəti başa düşən, təhlil etmək qabiliyyətinə malik olan dairələr qarşısında Ermənistanın öz-özünü ifşa edilməsi demək olardı. Ona görə də belə bir təklifdən imtina düzgün olmazdı. Ermənistan məcburiyyət qarşısında qalaraq bu təklifi qəbul edir və görüşə gələcəyini deyir".

Müsahibimiz qeyd edib ki, məlumdur ki, Ermənistan tərəfi görüşü istəmirdi, xüsusən Rusiyada hansısa danışıqların aparılmasına razılıq vermirdi: "Biz hər şeyə razı idik. Ancaq son hadisələr göstərdi ki, Fransa və ABŞ kimi Qərb ölkələri tərəf açıq-aşkar tərəf tuturlar. Təbii ki, tərəf tutanlar danışıqlarda vasitəçi kimi iştirak edə bilməzlər. O baxımdan ən gözəl və düzgün variant iki ölkənin nümayəndəsinin üzbəüz oturub söhbət etməsi, müzakirə aparmasıdır. Ermənistan belə bir qərarı vermək üçün müstəqil olmalıdır, ancaq müstəqil deyil. Sadəcə indiki məqamda Bakının təklifini rədd etsəydi, İrəvan müstəqil olmadığını birbaşa ortaya qoyacaqdı. Ermənistan havadarsız, arxasız, himayəçisiz heç bir addım ata bilmir. Nəzərə alaq ki, İrəvan görüş təklifinə dərhal razılıq vermədi, xeyli fikirləşdi, düşündü. Əvvəlcə "yox", cavabı gəldi, bir müddət sonra gələcəklərini dedilər".

Deputat vurğulayıb ki, 30 noyabrda baş tutacaq görüş komissiyalar səviyyəsindədir: "Bu, hələ sülh danışıqları söhbəti demək deyil. Sərhədlərin delimitasiya və demarkasiya üzrə komissiyaların növbəti görüşündən söhbət gedir. Bu, ilkin addımdır. Bakı belə bir təklifi etməklə çox düzgün addım atdı. Kimisə gözləmək lazım deyil. Ermənistan öz taleyini həll etmək iqtidarındadırsa, belə görüşlərdən qaçmamalıdır. Əgər qaçırsa, deməli həm də dövlət olmadığını sübut etmiş olur. Gələcək hadisələr göstərəcək ki, Ermənistan nə dərəcədə səmimidir və onun arxasındakı qüvvələr nə dərəcədə bu prosesin həllinə kömək etmək iqtidarındadırlar".

***M.İbrahimli***



## Lukaşenko Ermənistan rəhbərliyini tənqid etdi

***Xəbər verdiyimiz kimi, Minskdə Nikol Paşinyanın iştirak etmədiyi KTMT-yə üzv dövlətlərin liderlərinin yekun sammiti keçirilib.***

"Unikal" xarici KİV-ə istinadən bildirir ki, Belarus prezidenti Aleksandr Lukaşenko Ermənistanın sammitdə iştirak etməməsini tənqid edərək bunu demarş adlandırıb.

O, bildirib ki, bunu gizlətməyəcək: "Biz Qafqazdakı vəziyyəti və Kollektiv Təhlükəsizlik Şurasının üzvlərindən birinin bəzi şikayətlərini müzakirə etdik. Biz eyni qənaətə gəldik ki, problemli məsələlər həmişə olub və olacaq və əgər biz onları həll etmək niyyətindəyiksə, o zaman onları səbəbsiz demarşlar etməklə deyil, danışıqlar masası arxasında həll etməliyik. Biz öz fikrimizi bildirdik və arzuladıq ki, böyük ehtimalla Sankt-Peterburqda erməni dostlarımızı görək".

***Ağarza Elçinoğlu***

## Şahin Mustafayev Çinin Azərbaycandakı səfiri ilə görüşdü

***Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev noyabrın 23-də Çin Xalq Respublikasının ölkəmizdəki səfiri xanım Qo Min ilə görüşüb.***



Nazirlər Kabinetinin mətbuat xidmətindən "Unikal"a bildiriblər ki, görüşdə Azərbaycan-Çin dostluq və əməkdaşlıq əlaqələrinin siyasi, iqtisadi, ticarət, qarşılıqlı investisiyalar, nəqliyyat-logistika, energetika, kənd təsərrüfatı, humanitar və bütün digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib, dövlətlərarası münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığı bildirilib.

Həmçinin nəqliyyat-tranzit sahəsində qarşılıqlı faydalı əməkdaşlığın davam etdirilməsi, xüsusilə də "Bir kəmər, bir yol" təşəbbüsünün, eləcə də Orta Dəhlizin ən vacib hissəsi olan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun birgə təşviqinin əhəmiyyəti vurğulanıb. Bu çərçivədə hüquq-müqavilə bazasının təkmilləşdirilməsi, eləcə də əməkdaşlıq mexanizmlərinin genişləndirilməsi məqsədilə yaxın zamanlarda imzalanması nəzərdə tutulan bir sıra sənəd layihələri müzakirə olunub.

# Prezident Beynəlxalq dəhlizlərlə bağlı Fəaliyyət Planını təsdiqləyib



***"Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımalarının təşviqinə dair 2024-2026-cı illər üçün Fəaliyyət Planı" təsdiq edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı müvafiq Sərəncam imzalayıb.

2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

2.1. Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin;

2.2. Fəaliyyət Planının icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# İlham Əliyev Viktor Orbanla görüşdü

***Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orban ilə görüşüb.***

"Unikal" xəbər verir ki, Macarıstanın Baş naziri Viktor Orban SPECA-nın Zirvə görüşündə fəxri qonaq qismində iştirak üçün dəvətə görə dövlətimizin başçısına təşəkkürünü bildirdi. O, Macarıstan xalqının ən xoş arzularını və Azərbaycanın suverenliyinin bərpası, regionda vəziyyətin sabitləşməsi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.



Prezident İlham Əliyev Azərbaycan ilə Macarıstan arasında əlaqələrin və dostluq münasibətlərinin hərtərəfli inkişafından məmnunluğunu ifadə etdi, ölkələrimizin ikitərəfli əsasda və Türk Dövlətləri Təşkilatı çərçivəsində yaxından əməkdaşlıq etdiyini, həmçinin SPECA-nın işbirliyi üçün yeni format yaratdığını vurğuladı.

Viktor Orban Macarıstanın Türk ailəsinə yaxınlaşmasında və Türk Dövlətləri Təşkilatı ilə münasibətlərin inkişaf etdirilməsində Azərbaycanın göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan ilə Mərkəzi Asiya ölkələri siyasi, iqtisadi, geosiyasi baxımdan vahid məkanı özündə əhatə edir. Ölkələrimiz arasında iqtisadi inteqrasiya daha da dərinləşir, Mərkəzi Asiyanı Xəzər dənizi və Qara dəniz ilə birləşdirən nəqliyyat, enerji, o cümlədən bərpaolunan enerji və digər sahələrdə yeni əməkdaşlıq layihələri və platformaları inkişaf etdirilir.

Azərbaycanın işğaldan azad olunmuş Cəbrayıl rayonunun Soltanlı kəndinin təməlqoyma mərasiminin Macarıstanla birgə həyata keçirilməsinin böyük əhəmiyyətə malik olduğu qeyd edildi, bu layihənin macar şirkətlərinin iştirakı ilə icra olunacağı vurğulandı.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq etdiyi qeyd olundu. Azərbaycan ilə Macarıstan arasında iqtisadi-ticari, investisiya əlaqələrinin inkişafından məmnunluq ifadə edildi. Bu baxımdan ölkələrimiz arasında enerji sahəsində icra olunan layihələrin önəmi xüsusi vurğulandı, turizm, əczaçılıq, nəqliyyat-logistika sahələrində və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi.

# Şavkat Mirziyoyev Azərbaycana gəldi

***Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev noyabrın 23-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.***

"Unikal" xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Şavkat Mirziyoyevi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.



# Azərbaycanın İranla dövlət sərhədində yeni buraxılış məntəqələri tikiləcək




***Azərbaycanın İranla dövlət sərhədində yeni buraxılış məntəqələri inşa olunacaq.***

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımalarının təşviqinə dair 2024?2026-cı illər üçün Fəaliyyət Planı"nda əksini tapıb.

Qeyd edilib ki, Zəngilan rayonunun Ağbənd qəsəbəsində, Naxçıvan Muxtar Respublikasının ərazisində və Astara rayonunda dövlət sərhədində yeni buraxılış məntəqələrinin inşasına dair İran İslam Respublikası ilə razılaşdırıldıqdan sonra tikinti işlərinə başlanılacaq.

# TƏBİB qızılca xəstəliyi ilə bağlı məlumat yaydı

***Hazırda ölkə ərazisində qızılca xəstəliyinə yoluxma halları müşahidə edilir. Bir çoxunuza məlum olduğu kimi, ölkəmizdə qızılca xəstəliyinə son illər ərzində yoluxma nadir hallarda qeydə alınıb, hətta bəzi illərdə ümumiyyətlə, yoluxma olmayıb, ən yüksək yoluxma isə 2018-ci ildə qeydə alınıb. Bu da daha çox 40 yaşdan yuxarı əhali arasında müşahidə olunub və dövlət tərəfindən təqvimdən kənar peyvənd kampaniyalarına başlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə TƏBİB məlumat yayıb.

TƏBİB
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi

"Qızılca xəstəliyinə yoluxmaların bu tipli artımları Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən proqnozlaşdırılmışdır. Belə ki, hazırda Avropa regionunda da yoluxma sayları payız-qış aylarında artım göstərməkdədir. Bunun əsas səbəbi peyvəndlənmə yaş dövrünün COVID-19 pandemiyasına təsadüf edən uşaqların olmasıdır ki, məhdudlaşma tədbirlərinə bağlı olaraq onlar peyvəndlənmədən kənar qalıblar.

Hazırda yoluxmalar daha çox məktəb və bağça yaşlı uşaqlar arasında üstünlük təşkil edir. Bu xəstəlik uşaqlıq dövrünün infeksion xəstəliklərindən hesab olunur, virus mənşəli xəstəlikdir və özü sağalan xəstəliklər qrupuna daxildir. Yəni bu, o deməkdir ki, xəstəliyin xüsusi spesifik müalicəsi yoxdur. Qızılca xəstəliyi adətən stasionar müalicəyə ehtiyacı olmayan, ev şəraitində izolyasiya olunaraq müalicə edilən xəstəlikdir. Bu xəstələr ailə sağlamlıq mərkəzlərinin həkimləri tərəfindən nəzarətə götürülür. Bir sıra hallarda yoluxmuş şəxslərdə xəstəliyin ağırlaşma halları baş verə bilər. Bunlara pnevmoniya, orta qulağın iltihabı, bağırsaq mənşəli ağırlaşmalar, ensefalit, meningit və s. aiddir. Belə olan hallarda xəstələr TƏBİB-in tabeli tibb müəssisələrində fəaliyyət göstərən yoluxucu xəstəliklər şöbələrinə yatırılaraq müalicəyə cəlb olunurlar. Müalicə xərcləri icbari tibbi sığortanın Xidmətlər Zərfi çərçivəsində ödənilir.

Nəzərinizə çatdırmaq istəyirik ki, TƏBİB-in tabeliyində Bakı şəhəri üzrə 17, Sumqayıt şəhəri üzrə 2, regionlarda isə 48 yoluxucu xəstəliklər şöbəsi fəaliyyət göstərir, çarpayı sayı cəmi 1400-ə qədərdir.

Bu günə olan məlumata əsasən, bütün regionlar, Sumqayıt və paytaxt ərazisində yoluxma sayları nəzarət altındadır, yoluxucu xəstəliklər şöbələrində kifayət sayda boş çarpayılar, ağırlaşma hallarının idarə olunması və ehtiyac yaranan hallarda xəstələri tibbi xidmətlə təmin etmək üçün bütün resurslar mövcuddur.

Bir daha qeyd edirik ki, ağırlaşma halları ilə müraciət edən xəstələr qızılca əleyhinə peyvənd olunmamışlardır.

Əlavə edək ki, qızılca xəstəliyinə qarşı spesifik vaksin mövcuddur və milli peyvənd təqviminə daxil edilib. Sözügedən peyvənd uşaqlara 12 aylığında və 6 yaşında tətbiq olunur. Xəstəliyə yoluxmaqdan, baş verə biləcək ağırlaşmalardan, bu ağırlaşmaların gələcək fəsadlarından qorunmaq üçün vaksinasiya olduqca vacibdir. Qızılca əleyhinə peyvənd təqvimində milli peyvənd təqviminə 1994-cü ildə daxil olub və hazırda bütün ailə sağlamlıq mərkəzlərində ödənişsiz şəkildə tətbiq olunmaqdadır", - deyə məlumatda qeyd olunub.

# Sülhməramlılar daha bir müşahidə məntəqəsini ləğv etdi

***Rusiya sülhməramlı kontingenti Laçın rayonunda daha bir müşahidə məntəqəsini ləğv edib.***

"Unikal" bu barədə Rusiya Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadən xəbər verir.

Qurumdan bildirilib ki, sentyabrın 19-dan Rusiya sülhməramlılarının ümumilikdə 12 müşahidə və 16 müvəqqəti müşahidə məntəqəsi bağlanıb.

"Son sutka ərzində Rusiya sülhməramlı kontingentinin məsuliyyət daşıdığı ərazidə atəşkəs rejiminin pozulması faktı qeydə alınmayıb", - məlumatda qeyd olunub.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5ᴺ
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# "İşğal illərində şəhər və kəndlərimiz Ermənistan tərəfindən talan olunub" - Prezidentdən müraciət



***Prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin əmək nazirlərinin V konfransının iştirakçılarına müraciət ünvanlayıb.***

"Unikal" xəbər verir ki, müraciətdə deyilir: "Hörmətli konfrans iştirakçıları! Sizi İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin əmək nazirlərinin V konfransının açılışı münasibətilə səmimi-qəlbdən salamlayıram. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı ilə əlaqələrə xüsusi əhəmiyyət verir və Təşkilat çərçivəsində əməkdaşlığın bütün sahələrdə inkişaf etdirilməsinin tərəfdarıdır. 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan edilmiş Bakı şəhəri İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin sahəvi nazirlərinin bir çox iclaslarına ev sahibliyi etmişdir. Bugünkü konfrans da İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlər arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlığın genişləndirilməsi və birgə səylərin gücləndirilməsi baxımından böyük önəm daşıyır.

Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü kimi dünyada İslam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində Təşkilatın səylərini davamlı olaraq dəstəkləyir. Qlobal böhranların, bəşəriyyət qarşısında duran yeni sınaq və çətinliklərin, islamofobiyanın geniş yayıldığı dövrdə müsəlman dövlətlərinin bir-birinə qarşılıqlı dəstək göstərməsi, İslam birliyinin gücləndirilməsi olduqca vacibdir.

2023-cü il Azərbaycan üçün xüsusilə əlamətdar il oldu. Otuz il ərzində ərazilərimizdə mövcud olan "boz" zonanı aradan qaldıraraq və separatizmə son qoyaraq ölkəmizin suverenliyini, konstitusiya quruluşunu bərpa etdik, bununla da beynəlxalq hüququn və ədalətin təntənəsini özümüz təmin etdik.

İslam Əməkdaşlıq Təşkilatı Ermənistanın Azərbaycana qarşı otuz il davam edən təcavüzünü və işğalçı siyasətini hər zaman pisləmiş, həm İkinci Qarabağ müharibəsi zamanı, həm də postmüharibə dövründə Azərbaycanın haqq işini, ərazi bütövlüyünü daim və ardıcıl şəkildə dəstəkləmişdir. Buna görə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərə minnətdarlığımızı bildiririk.

Təəssüflər olsun ki, işğal illərində şəhər və kəndlərimiz Ermənistan tərəfindən qəsdən dağıdılmış, talan olunmuş, mədəni və dini abidələrimiz məhv edilmişdir. Bundan başqa, Ermənistan işğal altında saxladığı ərazilərimizdə ilkin qiymətləndirmələrə görə bir milyona yaxın mina basdırmış, burada urbisid, kultursid və ekosid törətmişdir. Xalqımızın mədəni irsinə qarşı soyqırımı törətmiş ermənilər məscidlərimizi yerlə-yeksan edərək yalnız bizim deyil, bütün dünya müsəlmanlarının hisslərini təhqir etmişlər. İslam Əməkdaşlıq Təşkilatı əvvəllər işğal altında olmuş ərazilərimizdə İslam tarixi və mədəni abidələrinin, ziyarətgahlarının Ermənistan tərəfindən dağıdılmasını və talan olunmasını qəti şəkildə pisləmiş, məscidlərin təhqir olunmasını şiddətlə qınamışdır. Buna görə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərə və Təşkilatın Baş Katibliyinə bir daha təşəkkürümüzü bildiririk.

Hazırda işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır, vacib infrastruktur layihələri həyata keçirilir. Böyük Qayıdış Proqramı çərçivəsində keçmiş məcburi köçkünlər artıq dədə-baba yurdlarına - Laçın və Füzuli şəhərlərinə, o cümlədən üç kəndə qayıdıblar. 2026-cı ilin sonunadək 140 mindən çox insanın Qarabağa və Şərqi Zəngəzura geri dönməsi nəzərdə tutulur.

Əlamətdar haldır ki, on il əvvəl də Bakıda İslam Əməkdaşlıq Təşkilatının əmək nazirlərinin konfransı keçirilmişdir. Burada qəbul edilən "Çərçivə sənədi"nə əsasən əmək, miqrasiya və sosial müdafiə sahələrində təcrübə mübadiləsinə dair gələcək prioritetlər müəyyən olunmuşdur. Konfrans çərçivəsində, mənzil-qərargahı Bakıda olmaqla İslam Əməkdaşlıq Təşkilatının Əmək Mərkəzinin yaradılması təşəbbüsü tərəfimdən irəli sürülmüşdü və bu təşəbbüsü üzv ölkələr yekdilliklə dəstəkləmişlər. Ötən dövrdə İslam Əməkdaşlıq Təşkilatının Bakıda Əmək Mərkəzinin yaradılması istiqamətində mühüm işlər görülmüşdür. Mərkəzin üzv ölkələr arasında əməkdaşlığın daha da güclənməsində vacib rol oynayacağına əminəm.

Bugünkü tədbirin mövzusu innovativ həllərə, eyni zamanda əmək və məşğulluq xidmətlərinin rəqəmsallaşdırılmasına həsr edilib. Müzakirə olunacaq məsələlər hər bir ölkə, o cümlədən Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanda son illər ərzində sosial sahədə rəqəmsallaşma üzrə mühüm işlər görülmüşdür. Dövlət sosial xidmətlərinin innovativ yanaşmalar, müasir texnologiyalar üzərində qurulması, sosial sahədə vətəndaşlara şəffaf, çevik, keyfiyyətli, əlçatan və vətəndaş məmnunluğuna uyğun xidmətlər sisteminin formalaşdırılması sosial islahatlar proqramının əsas hədəflərindən biridir. Bu istiqamətdə "ASAN xidmət" modeli, DOST konsepsiyası, sosial xidmətlərin geniş miqyasda elektronlaşdırılması proqramı həyata keçirilmişdir.

Əmək, məşğulluq və sosial müdafiə sahələrində dövlət xidmətlərinin tam elektronlaşdırılması, bu sahələrdə əhaliyə 140-dan artıq elektron xidmətin göstərilməsi və vahid əmək münasibətləri platforması əhaliyə ciddi dəstək mexanizmini formalaşdırıb. Ölkəmizdə həyata keçirilən kompleks islahatlar nəticəsində məşğulluq imkanları artmış, işsizlik və yoxsulluğun səviyyəsi ciddi şəkildə azalaraq 5,5%-ə düşmüş, sosial ödənişlərdə dəfələrlə artımlar edilmişdir. Təkcə son dörd ildə qəbul edilmiş 4 sosial islahat paketi ilə əhalimizin 40%-i əhatə olunmuş, minimum əməkhaqqı 2,7 dəfə, əməkhaqqı fondu 2,6 dəfə, median əməkhaqqı 2,1 dəfə, minimum pensiya 2,5 dəfə, orta aylıq pensiya isə 2 dəfə artmışdır.

Əminəm ki, bugünkü konfrans İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlər arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlığın genişləndirilməsinin yeni imkanları ətrafında faydalı fikir mübadiləsi aparmaq və səyləri əlaqələndirmək üçün əhəmiyyətli platforma olacaq, qarşılıqlı faydalı tərəfdaşlığın yeni məzmunla zənginləşməsinə töhfə verəcəkdir. Sizə ən xoş arzularımı çatdırır, konfransın işinə uğurlar diləyirəm".



# Hikmət Hacıyev diplomatlarla görüşdü

***ADA Universitetində müxtəlif ölkədən olan bir qrup diplomatla regional və qlobal məsələlərlə bağlı geniş müzakirə təşkil edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabında yazıb.

"Xəzər Hövzəsi Araşdırmaları Proqramı çərçivəsində müxtəlif ölkələrdən olan bir qrup görkəmli diplomat qarşısında çıxış etməyə, regional və qlobal məsələlərlə bağlı daha geniş müzakirə və fikir mübadiləsi aparmağa dəvət etdiyinə görə ADA Universitetinə təşəkkür edirəm", - H.Hacıyev qeyd edib.

# Ceyhun Bayramov BMT-nin icraçı katibini qəbul edib

***Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün BMT-nin Xüsusi Proqramı (SPECA) həftəsi çərçivəsində ölkəmizdə səfərdə olan BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Tatyana Molçan ilə görüşüb.***

Bu barədə "Unikal"a Xarici İşlər Nazirliyindən məlumat verilib. Görüşdə Azərbaycan və UNECE arasında əməkdaşlıq gündəliyi və əməkdaşlıq perspektivləri, eləcə SPECA daxil olmaqla, ölkəmizin Orta Asiya ilə əlaqələri və bu çərçivədə UNECE-nin mümkün rolu müzakirə olunub.

Nazir Ceyhun Bayramov UNECE-nin əhatə dairəsinə daxil olan ətraf mühit, enerji, şəhər planlanması və s. istiqamətlərdə birgə səylərin artırılmasının vacib olduğunu vurğulayıb. SPECA-nın əsasının qoyulmasından etibarən ölkəmizin bu platforma çərçivəsində fəaliyyətə aktiv şəkildə töhfə verdiyini, bu istiqamətdə, xüsusilə Mərkəzi Asiya ölkələri ilə üçtərəfli əməkdaşlıq formatlarının mövcudluğunun birgə uğurlu layihələrin həyata keçirilməsinə daha böyük təkan verdiyini diqqətə çatdırıb.

SPECA ölkələri ilə müxtəlif o cümlədən, iqtisadi, ticarət, enerji təhlükəsizliyi, alternativ enerji mənbələri, nəqliyyat, kommunikasiyalar, ətraf mühit, innovasiyalar, dayanıqlı inkişaf məqsədləri və s. sahələr üzrə faydalı əməkdaşlıq gündəliyinin mövcudluğu məmnunluqla qeyd olunub. Xüsusilə, regional nəqliyyat və kommunikasiya xətlərinin inkişafı, o cümlədən Orta Dəhlizin imkanlarının genişləndirilməsi sahəsində mövcud təşəbbüslər və layihələrin əhəmiyyəti vurğulanıb.

2023-cü ildə SPECA-ya sədrliyimiz dövründə bu platforma çərçivəsində əməkdaşlığın gücləndirilməsi, habelə SPECA ölkələrinin ikitərəfli, regional və beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində Azərbaycanın səylərindən bəhs edən nazir Ceyhun Bayramov, Bakıda keçirilən SPECA həftəsi çərçivəsində baş tutacaq SPECA Sammitinin bu səylərin vacib nəticələrindən biri olduğunu qeyd edib.

İcraçı katib T.Molçan Azərbaycanın SPECA-ya sədrliyi dövründə onun müasir dövrün çağırışlarına uyğun platformaya çevrilməsi istiqamətində göstərdiyi səylərin təqdirəlayiq olduğunu qeyd edib. Bu istiqamətdə, növbəti gün Bakı şəhərində keçiriləcək SPECA Sammitinin regional və beynəlxalq çağırışların fonunda Proqram çərçivəsində əməkdaşlığın gücləndirilməsində əhəmiyyətli rol oynayacağına dair ümidvarlıq ifadə olunub. Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

UNI-41_27 IYUI-QARA.qxd 11/23/2023 10:56 PM Page 7





## Əli Əsədov qərar imzaladı

***Milli Arxiv İdarəsinin kollegiyasının yeni tərkibi təsdiqlənib.***

"Unikal" xəbər verir ki, bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb.

Belə ki, "Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin kollegiyasının tərkibi haqqında" Nazirlər Kabinetinin müvafiq qərarında dəyişiklik edilib.

Dəyişikliyə əsasən, kollegiyanın üzvləri aşağıdakılardır:

Azərbaycan Milli Arxiv İdarəsinin rəisinin müavini

Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin rəisi

Milli Arxiv İdarəsinin Arxiv işinin təşkili, monitorinq və beynəlxalq əlaqələr şöbəsinin müdiri

Azərbaycan Milli Arxiv İdarəsinin Milli Arxiv Fondu sənədlərinin komplektləşdirilməsi, qeydiyyatı və idarə arxivləri ilə iş şöbəsinin müdiri

Azərbaycan Dövlət Arxivinin direktoru

Azərbaycan Dövlət Tarix Arxivinin direktoru.

## İƏT-in Baş katibi Azərbaycanı təbrik etdi

***"Azərbaycanı suverenliyini tam bərpa etməsi ilə bağlı təbrik edirəm".***

"Unikal" xəbər verir ki, bunu İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Hissein Brahim Taha İƏT Əmək Nazirləri Konfransının Nazirlər Sessiyasında çıxışında deyib.

"İƏT baş katibi olaraq Azərbaycanın suverenliyi ilə bağlı haqq işinə dəstək verirəm", - o vurğulayıb.

Konfransın əhəmiyyətindən danışan Baş katib, onun İƏT daxilində əməkdaşlığı nəzərdən keçirmək üçün əlverişli fürsət olduğunu qeyd edib.

## Mikayıl Cabbarov: "Azərbaycanın xarici borcu ÜDM-in 10 faizi civarındadır"

***Azərbaycanın azad edilmiş ərazilərində aparılan yenidənqurma və bərpa işlərinə indiyədək dövlət büdcəsindən 7 milyard dollar sərf edilib. Gələn il üçün 2,4 milyard dollar ayrılması nəzərdə tutulur.***

"Unikal" xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov noyabrın 23-də SPECA Rəhbərlər Şurasının 18-ci iclasında deyib.

Nazir bildirib ki, son 20 ildə ümumi daxili məhsul 4 dəfə, büdcə gəlirləri 30 dəfədən çox, xarici ticarət dövriyyəsi isə 10 dəfədən çox artıb: "Hazırda Azərbaycanın birbaşa xarici borcu ÜDM-in 10 faizi civarındadır. Azərbaycanın valyuta ehtiyatları birbaşa xarici borcunu 10 dəfə üstələyir. Son 20 ildə ümumi investisiyalar 300 milyard dollardan çox olub, bunun 190 milyard dolları qeyri-enerji sektoruna qoyulub".

# "Rayonlarda iş yerlərinin açılması vacib məsələdir"

## Fazil Mustafa: "Bu gün şəhərdə olan sıxlığın inzibati yolla aradan qaldırılmasına əl atılsa da, bu, effektli nəticələr verməyəcək"

***Böyük Quruluş Partiyasının başqanı, deputat Fazil Mustafa "Unikal"a müsahibə verib. O, uşaqlar üçün nəzərdə tutulan müavinətlərin artırılmasından, rayonlardakı işsizlik problemindən, müharibə veteranlarının təqaüdünün qaldırılmasından və başqa məsələlərdən danışıb.***

***-Fazil bəy, parlamentdə büdcə müzakirələri zamanı sosial məsələlərlə bağlı geniş müzakirələr oldu. Son 100 illik tarixdə ilk dəfə Azərbaycanda doğum əmsalının azalmağa meyilləndiyi bildirildi. Həmçinin, hər uşağa görə müxtəlif təminatların olması təklif olundu. Uşaqpulu məsələsi də zaman-zaman Milli Məclisdə qaldırılıb. Yaxın illərdə uşaqpulunun bərpa olunması və ya hər uşağa görə başqa təminatın olması gözlənilirmi?***

-Doğum əmsalının azalması faktdır və bu da narahatedici amillərdən biridir. Burada ilk növbədə insanların sağlamlığı ilə bağlı perspektiv planlaşdırma məsələsi önə çəkilməlidir. Xüsusilə, anaların hamiləlik dövründən başlayaraq qorunması, müayinədən keçməsi və sağlam uşaq layihəsinin tətbiq olunması gələcəyimizin qorunması baxımından vacibdir. Bu, demoqrafiyamıza təsir edən amillərdən biri ola bilər. Ona görə də bu məsələnin üzərində ciddi işlənilməli və düşünülməlidir. Səhiyyə infrastrukturunu o dərəcədə təkmilləşdirməliyik ki, uşaq ölümlərinin səviyyəsi aşağı düşsün. Buna təsir edən digər amil isə boşanma hallarıdır. Boşanmaların sayının artması buna ciddi təsir edir. O cümlədən sosial vəziyyətin də əhəmiyyətli təsiri var. Dövlət çoxuşaqlılığı təşviq etmək yolunu seçməlidir. Uşaqpulu terminologiya olaraq sovet dövründən insanların yaddaşında qalmış vəsaiti xatırladır. Burada ayrı-ayrı kateqoriyadan olan uşaqları və hamını əhatə edən müavinət formalarından söhbət gedir. Bu müavinətləri artırmaq lazımdır. Bunların hamısı əslində uşaqpuludur. Bu adla müavinət alanların sayı kifayət qədərdir. Bunun çoxşaxəli olması vacibdir və uşaqların heç biri kasıbçılıqdan, yoxsulluqdan hansısa vəziyyətə düşməsinlər. O baxımdan müavinətin növlərinin artırılmasına ehtiyac var. Bu həm də uşaqların əksəriyyətini əhatə edə biləcəyinə görə onların qorunması istiqamətində faydalı addım olacaq.

***-Rayonlarda işsizliyin çox olması da əsas qaldırılan məsələlərdən oldu. Belə olan halda isə insanlar paytaxta üz tutur. Bu da hər keçən gün Bakıda sıxlığı bir qədər də artırır. Məşğulluq Agentliyinin bu istiqamətdə fəaliyyətini necə qiymətləndirirsiz və regionların inkişafı üçün nələr edilməlidir?***

-Rayonlarda iş yerlərinin açılması vacib məsələdir. Bu gün şəhərdə olan sıxlığın inzibati yolla aradan qaldırılmasına əl atılsa da, bu, effektli nəticələr verməyəcək. İnsan öz bölgəsinə ona görə qayıda bilər ki, orada daha yaxşı yaşayış təmin edilsin. İnsanlar üçün bu önəmlidir. Seçimlər bu istiqamətdə olur ki, normal iş yerləri təmin etsələr çox insan geri qayıda biləcək və öz həyatını yeni formada qurmaq imkanı əldə edə biləcək. Təəssüf ki, hələ bu istiqamətdə irəliləyiş yoxdur və bu da ciddi narahatlıq yaradır. Çalışmalıyıq ki, regionlarla bağlı bütün proqramlar icra olunsun. Burada bir sıra məsələlər var ki, onların həlli istiqamətində düşünmək lazımdır. İlk növbədə gənclərin peşə təhsili ilə bağlı bölgələrdə daha ciddi mühit yaradılmalıdır. İş yeri əldə edən



gənclər daha çox bu ərazilərə geri qayıdacaqlar. Bu təşviq olmasa, məsələlərin həlli çətin olacaq. Məşğulluğun təqdim etdiyi iş yerlərinin məbləği aşağıdır. Buna görə də həmin işə maraq göstərilmir. Burada daha çox özəl sektorun təşviq olunmasından başlamaq lazımdır. Bölgələrdə özəl sektorun inkişafı imkan yaradacaq ki, hər kəs öz doğulduğu rayon üçün böyük işlər görsün. Bu da öz növbəsində paytaxtın daha çox cəlbedici olmasını ortadan qaldıracaq. Əgər adam rayonda, kənddə daha yaxşı yaşaya biləcəksə, şəhər həyatına bağlılığa maraq göstərməyəcək. Çox adam işsizlik səbəbindən şəhərə axın edib. İş yeri yaradandan sonra bəhanələr də qalmayacaq. Tozun-torpağın içərisində, "gecəqondu" mühitində və uşaqların məktəblərdə nə qədər əziyyət çəkdiyini görürük. Bu da müəyyən dərəcədə mədəni həyatın inkişafına mənfi təsirini göstərir.

***-Parlamentdə Müharibə veteranlarına verilən təqaüdün artırılması müzakirə olundu. Hazırda bu məbləğ 80 manatdır və onun artırılması təklif olunur. Sizcə, müharibə veteranlarının təqaüdü nə qədər artırıla bilər və başqa hansısa imtiyazlar tətbiq oluna bilərmi?***

-Müharibə veteranlarına verilən təqaüdün məbləği ən azı iki dəfə artırılmalıdır. Onlar müharibənin bütün sıxıntılarını yaşamış insanlardır. Doğrudur, burada da müəyyən məqamda çeşidləmə lazımdır. Bəzi insanlar müxtəlif vasitələrlə bu adı alıblar. Haqqı çatmayan insanların bir-iki günlük ezamiyyətdə aldıqları müharibə veteranı adları var. Amma xeyli hissə həqiqətən döyüş bölgəsində fədakarlıq edib və əziyyət çəkib. Bunları nəzərə almaq lazımdır. Onların təqaüdlərinin 2 dəfə artırılması zəruridir və bu cəmiyyətdə də ədalətli addım kimi qəbul olunar.

***-Milli Məclisdəki çıxışınızda siz də bələdiyyələrlə bağlı məsələyə toxundunuz. Qeyd etdiniz ki, iqtisadiyyatımızın dirçəlməsi üçün çıxış yollarından biri də dövlətin yükünün bələdiyyələrə ötürülməsidir. 2024-cü ildə ölkəmizdə bələdiyyə seçkiləri keçiriləcək. Bu seçkilər əvvəlkilərdən nə ilə fərqlənə bilər və bələdiyyələrin səlahiyyətinin artırılması, böyük şəhər bələdiyyələrinin yaradılması və s. məsələlər gözlənilirmi?***

-Yerli özünüidarəetməni canlandırmasaq, işimiz çox çətin olacaq. Yerli özünüidarəetmə bu prosesin əsas mənasını ifadə edir. Ona görə ki, bir sıra yerli özünüidarəetmə layihələri öz həllini tapmır. Bunun da səbəbi odur ki, səlahiyyət yoxdur. Səlahiyyət olmayanda hansısa formada dövlətin ayırdığı mərkəzləşmiş vəsaitin xərclənməsi mümkün olmur. Bu daha çox korrupsiya amilinə çevrilir. Biz daha çox buna fikir verməliyik. 2024-cü il seçkilərində bələdiyyələrin canlı orqanizmə çevrilməsi ümumi işlərimizə faydası olar. Yerli kommunal məsələlərin yükü dövlətin üzərindən alınar və insanlar daha təşəbbüskar formada öz problemlərinin həllinə can atarlar.

***-Gələn il həmçinin, parlament seçkilərinin keçiriləcəyi ilə bağlı fikirlər var. Necə düşünürsüz növbəti seçkilərdə deputatların sayı artırıla bilərmi?***

-Parlament seçkilərinin gələn il keçirilib-keçirilməyəcəyi barədə bir şey deyə bilmərəm. Amma bu seçkilərə az müddət qalır. Bu arada referendum olsa idi, belə bir gözlənti olardı. O zaman konkret olaraq deputatların sayında və hansısa səlahiyyətdə dəyişiklik olacağını düşünmürəm. Ona görə ki, bu daha çox konstitusion dəyişikliklərdən asılı məsələ idi. Bu olmadığı üçün indiki məqamda belə bir gözlənti yoxdur.

***Anar Kəlbiyev***

# İsmət Abbasovun zavodu zərərdən qurtula bilmir

## Sabiq nazirin cəhdləri keçən ilki ssenarini dəyişməyə kifayət edəcəkmi?

***Baş nazirin sabiq müavini, keçmiş Kənd Təsərrüfatı naziri İsmət Abbasovun zavodu kimi tanınan “Bakı Şərab 1” ATSC hələ də bazarda mövqelərini gücləndirməyi bacarmayıb. Halbuki 3 il öncə, 2020-ci ildə vaxtilə Azərbaycanın ən korrupsiyalaşmış qurumlarından olan “Aqrolizinq” ASC-nin sabiq sədri Əli Bayramov bu qurumun İdarə Heyətinin sədri təyin edilərkən zavodun fəaliyyətində ciddi dönüş yaranacağı güman edilirdi.***

Lakin İ.Abbasovun ehtimalları özünü doğrultmayıb. Belə ki, ”Bakı Şərab -1” ATSC 2022-ci ili 44 min 568 manat xalis zərər ilə başa vurub. Halbuki, şirkət 2021-ci ili ən azından nə mənfəət, nə də zərərlə başa vurmuşdu. Bir az da dəqiqləşdirək: 2021-ci ildə ”Bakı Şərab-1”in satışdan gəlirləri (əsas əməliyyat gəlirləri) 2021-ci ildə 1 milyon 491 min manat ikən, 2022-ci ildə 548 min 134 manat təşkil etmişdi (yəni 943 min 275 manat və ya 63% azalmışdı)

Bundan başqa, 2021-ci ildə vergitutmadan əvvəl mənfəət 129 min 228 min manat olmuşdusa, ötən il şirkət 44 min 568 min manat zərər eləmişdi.

Həmçinin ötən il ”Bakı Şərab -1”in cəmi aktivləri 6,4% azalaraq 3 milyon 12 min 708 min manata geriləmişdi.

Xatırlatma: adıçəkilən zavodun Sabiq baş nazirin müavini və keçmiş Kənd Təsərrüfatı naziri olmuş İ.Abbasova bağlılığı barədə mətbuat illərdir yazır. Lakin o, həmin məlumatları bu günədək təsdiqləməsə belə, təkzib də etməyib. Hətta Abbasov nazir olarkən zavodun bağlanma təhlükəsi ilə üzləşdiyi, müəssisəni bu vəziyyətdən sabiq nazirin çıxardığı və öz nəzarətinə keçirdiyi bildirilirdi. Lakin İsmət müəllim o zamanlar da belə xəbərləri susqunluqla qarşılamışdı...

Yada salaq ki, İ.Abbasovun zavodu etibar elədiyi Ə.Bayramov 2007-ci ildən 2014-cü ilə kimi “Aqrolizinq” ASC-nin sədri vəzifəsində çalışmışdı. İsmət Abbasovun Kənd Təsərrüfatı naziri vəzifəsini tutduğu dövrdə işləmiş Ə.Bayramov onun ən yaxın kadrlarından biri sayılırdı.

Lakin İ.Abbasov 2013-cü ildə nazir vəzifəsindən gedəndən və Baş nazirin mavini təyin olunandan sonra Ə.Bayramovun da “kitabı bağlandı”. 2014-cü ildə öz ərizəsilə “Aqrolizinq” ASC-nin sədri vəzifəsindən getməli olan Bayramov bunu səhhətilə izah etməyə çalışsa da, hamıya bəlli idi ki, əsas səbəb təşkilatdakı külli miqdarda yeyinti faktlarının üzə çıxmasıdır.

Belə ki, Əli Bayramovun işdən getməsindən cəmi bir neçə gün sonra Hesablama Palatası “Aqrolizinq” ASC-də dövlət büdcəsindən ayrılan vəsaitlərin talanması ilə bağlı üzə çıxardığı faktları cinayət işinin qaldırılması üçün Baş Prokurorluğa göndərmişdi.

Hesablama Palatasının həmin vaxt yaydığı məlumata görə, “Aqrolizinq” ASC-də büdcə vəsaitlərindən qanunsuz istifadə, büdcə öhdəliklərinin icra edilməməsi, iş həcmlərinin artırılması, borcların uçotdan yayındırılması və digər maliyyə pozuntularına yol verildiyi nəzərə alınaraq nəzarət tədbiri üzrə yoxlama materialları Baş Prokurorluğa təqdim olunub. Hətta həmin vaxt Ə.Bayramovun istintaqdan yayınmaq üçün Türkiyəyə qaçdığına dair məlumatlar da yayılmışdı.

Hər kəsə məlum idi ki, bu qurumun keçirdiyi tenderlərdə öz maraqlarına uyğun şirkətləri cəlb eləmək, onları qalib elan etmək, onların vasitəsi ilə ölkəyə cins mal-qara, texnika, gübrə və digər məhsullar gətirmək, məhz Əli Bayramovun idarəçiliyi altında baş verib. Lakin maraqlıdır ki, yüz milyonlarla dollar büdcə vəsaitinin talanması faktlarını araşdıran sabiq Baş prokuror Zakir Qaralov nədənsə “Aqrolizinq”-in “xırda kalibrli” məmurlarına qarşı cinayət işi qaldırmaqla, onların bir neçəsinin həbsinə qərar verməklə kifayətlənmişdi. Nəticədə ”Aqrolizinq”dəki irimiqyaslı korrupsiya ört-basdır edilmişdi.



2020-ci ildə isə məlum oldu ki, “köhnə qvardiyanın” sanballı üzvlərindən biri sayılan İ.Abbasov Ə.Bayramovun sədaqətini unutmayıb və adı açıq-aşkar külli miqdarda korrupsiya faktlarında keçən bu şəxsə yenidən etimad göstərib: onu qeyri-rəsmi şəkildə özünə məxsus olan “Bakı 1 saylı Şərab Zavodu” ATSC-nin rəhbərliyinə gətirib.

Bundan sonra sözügedən şirkətin fəaliyyətində müsbət dönüşün olacağı gözlənilsə də, yuxarıda da vurğuladığımız kimi, zavodun ötən ili zərərlə başa vurduğu açıqlandı. Eyni ssenarinin davam edibetmədiyi yəqin ki, yeni ilin əvvəllərində aydınlaşacaq. Lakin gələn iddialar bu yöndədir ki, İsmət Abbasova aid edilən ATSC ilə bağlı dəyişən heç nə yoxdur. Şirkətin hələ də bazarda ciddi mövqe tutmaqda çətinlik çəkdiyi vurğulanır. Ona görə də iddia edilir ki, adıçəkilən zavodun 2023-cü ili də zərərlə başa vurmaq ehtimalı böyükdür. Bir sözlə, sabiq nazirin öz keçmiş kadrına etimadı istənilən effekti verməyib.

Bu deyilənlərin nə qədər doğru olub-olmadığı zamanla aydınlaşacaq.

Onu da deyək ki, Ə.Bayramovun “Bakı 1 saylı Şərab Zavodu”nun İdarə Heyətinə sədr təyin edildiyi il (2020) də bu şirkət 404 min 284 manat xalis zərər ilə bağlamışdı...

***Toğrul Əliyev***

# Vüqar Qurbanov bu xəstəxanaya direktor təyin etdi

***Qusar Rayon Mərkəzi Xəstəxanasına yeni direktor təyin olunub.***



”Unikal” xəbər verir ki, TƏBİB-nin icraçı direktoru Vüqar Qurbanovun əmri ilə, direktor vəzifəsinə Pərviz Məhsimov təyinat alıb. Qeyd edək ki, o, bu təyinatadək Xaçmaz Rayon Mərkəzi Xəstəxanasının keyfiyyətə nəzarət sektorunun müdiri olub.

Xatırladaq ki, Qusar rayon Mərkəzi Xəstəxanasının sabiq direktoru Kamran Paşayev cari ilin avqust ayının 31-də ürəktutmadan vəfat edib.

# Laçın-Xankəndi yolu ilə bağlı ingilis dilində hesabat hazırlandı



***Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin ekspertləri Roza Bayramlı və Məryəm İsmayılova “Laçın-Xankəndi yolu ətrafında yaranmış mübahisələr” adlı ingilis dilində hesabat hazırlayıblar.***

Hesabatın yazılmasının əsas məqsədi son 3 ildə Azərbaycanın Qarabağ bölgəsində baş vermiş hadisələri ümumiləşdirərək xarici auditoriyaya çatdırmaqdır. Yazıda qeyd olunub ki, son 3 il ərzində Laçın-Xankəndi yolunda baş verən hadisələr ermənilər tərəfindən “blokada”, “etnik təmizləmə”, “humanitar böhran” terminləri altında fəal təbliğ olunub. Vurğulanır ki, Azərbaycanın hər zaman beynəlxalq hüquq normalarına uyğun hərəkət etməsinə baxmayaraq bu müddətdə Ermənistana dəstək verən ölkələrin sayı az deyildi. Təhlildə həm ermənilərin törətdiyi cinayətlər, həm də o “blokada” məsələsinin yalan olduğunu sübut edən faktlar öz əksini tapıb.

Təhlilin ilk fəslində ermənilərin Qarabağda qeyri-qanuni iqtisadi əməliyyatları və nəticədə ekoloji mühitə vurulan zərər haqda məlumat verilib. Burada həm də eko-aktivistlərin etiraz aksiyalarına səbəb olan hadisələr göstərilib. Həmin etiraz aksiyaları da ermənilər tərəfindən “blokada” kimi təqdim olunsa da, təhlildə bunu təkzib edən faktlar göstərilib.

Təhlilin növbəti fəslində Laçın sərhəd-keçid məntəqəsinin qurulmasından əvvəl Ermənistandan Qarabağa qeyri-qanuni yolla daşınan silah-sursat haqqında məlumatlar yer alıb. Bu qanunsuz fəaliyyəti sübut edən vizual faktlar də təhlilə əlavə edilib. Hərbi cinayətlərin qarşısını almaq üçün Azərbaycan tərəfindən Laçın-Xankəndi yolunda sərhəd-keçid məntəqəsinin yaradılması və ermənilərin buna kəskin reaksiyası da təhlilə daxil edilib.

Təhlildə Dövlət Sərhəd Xidməti tərəfindən təqdim olunmuş həm cari ilin aprel-sentyabr aylarında Ermənistandan Azərbaycana və Azərbaycandan Ermənistana keçən şəxslərə dair statistik məlumat, həm də yoldan istifadə məhdudiyyətinə gətirən cinayətlərə dair məlumatlar öz əksini tapıb. Hesabatda Ermənistanın müraciətinə cavab olaraq 16 avqust 2023-cü il tarixində BMT TŞ növbədənkənar iclasında Qarabağdakı vəziyyətlə bağlı müzakirələrin aparılması və iclasın sonunda heç bir sənədin qəbul edilməməsi də vurğulanıb. Təhlilə eləcə də ermənilərin “humanitar böhran” şəraitində toy və şənlikləri təşkil etməsinə dair şəkillər də əlavə edilib. Şəkillər Qarabağda yaşayan ermənilərin sosial şəbəkədə etdikləri paylaşımlardan götürülüb.

Təhlilin yekun hissəsində Azərbaycanın regionda sülhün bərqərar olmasının tərəfdarı olduğu və reinteqrasiya proseslərinə hazır olduğu bildirilib.

# Daha 93 nəfər Zabuxa qayıtdı

***Laçın rayonunun yenidən salınan Zabux kəndinə köç prosesi davam edir.***

“Unikal” xəbər verir ki, Abşeron rayonunda, Bakı və Sumqayıt şəhərləri ərazisindəki yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı “Qobu park 3” yaşayış kompleksindən yola salınıb.

Bu mərhələdə Zabux kəndinə daha 25 ailə - 93 nəfər köçürülüb.

Xatırladaq ki, indiyədək Zabux kəndində 121 ailənin, yeni 475 nəfərin daimi məskunlaşması təmin edilib.

UNI-41_27 IYUI-QARA.qxd 11/23/2023 10:56 PM Page 9



# Sabiq nazirin şirkəti bağlandı

## Füzuli Ələkbərovun holdinqinə daxil olan "İmprotex Aqrotexservis"in ləğv edilməsinə səbəb nədir?



***Sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Ələkbərova məxsus şirkət bağlanıb. Söhbət "İmprotex Group"un tərkibində olan "İmprotex Aqrotexservis" MMC-dən gedir. Şirkət ləğv olunduğunu artıq elan edib.***

Bununla bağlı elanda vurğulanıb ki, kreditorlar iki ay ərzində tələblərini AZ 1111 Bakı şəhəri, Nəsimi rayonu, 20 Yanvar küçəsi, ev 33 ünvanına bildirə bilərlər.

Bildirək ki, "İmprotex Aqrotexservis" MMC 2006-cı ildə dövlət qeydiyyatına alınıb, nizamnamə kapitalı 20 manatdır və qanuni təmsilçisi Elman İsmayılovdur.

Onu da qeyd edək ki, "İmprotex Group" holdinqin tərkibində 10-a yaxın şirkət var.

Xatırladaq ki, F.Ələkbərov 2006-2013-cü illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə rəhbərlik edib. Onun nazir postundan uzaqlaşdırılmasına oğlu Vüqar Ələkbərovun İsmayıllı rayonunda yerləşən "Çıraq" otelində yaratdığı qalmaqal və bunun nəticəsində yerli əhali arasında baş qaldıran, iğtişaşa çevrilən narazılıqların səbəb olduğu deyilirdi. Həmin hadisələrdən sonra rayonun icra başçısı, F.Ələkbərovun qardaşı İsmayıllının icra başçısı Nizami Ələkbərov da vəzifəsindən azad edilmişdi.

Nazir olduğu vaxt F.Ələkbərovun biznesi çiçəklədiyi kimi, vəzifədən gedəndən sonra holdinqi qürub çağını yaşayırdı. Lakin son illərdə "İmprotex Group"a daxil olan bəzi şirkətlərin müxtəlif tenderləri udduğuna dair məlumatlara rast gəlinir. Məsələn, "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" Publik Hüquqi Şəxs tərəfindən bu il aprelin 5-də elan edilən tenderin nəticələri və qalibi açıqlanıb. Belə ki, "Yeni yük avtomobillərinin, həmçinin mövcud yük avtomobilləri üçün arxa hidravlik liftlərin" satın alınması tenderinin qalibi "İmprotex Group"un tərkibində fəaliyyət göstərən "Az-Tex-Import" MMC olub. Bununla bağlı xəbərdə bildirilirdi ki, 2 milyon 369 min manatlıq satınalama müqaviləsinin şərtlərinə əsasən, şirkət Dövlət Agentliyi üçün 10 ədəd soyuducu tipli yeni yük avtomobilinin və yük avtomobilləri üçün 10 ədəd yük götürmə qabiliyyəti 2 ton olan mövcud arxa hidravlik liftin alınmasını həyata keçirəcək.

O da maraqlıdır ki, "Az-Tex-Import" MMC 19 iyul 2017-ci ildə dövlət qeydiyyatına alınsa da, 2020-ci ilin apel ayından başlayaraq ilin sonuna qədər 10 tenderin qalibi olub və ümumi dəyəri 14 milyon 209 min 762 manat olan satınalma müqavilələri imzalayıb. Bu müqavilələrin səkkizi Bakı Şəhər İcra Hakimiyyətinə tabe olan idarə və müəssisələrlə, birini Bakı Nəqliyyat Agentliyi, digərini isə "BakuBUS" MMC ilə bağlayıb.

Şirkət 26 noyabr 2022-ci ildə isə Kommunal Xidmətlər Müəssisəsinin 995 min manat dəyərindəki "Nəqliyyat və xüsusi texnikaların satınalınması" tenderinin qalibi seçilib.

Onu da deyək ki, Füzuli Ələkbərovun 10-a yaxın şirkətindən biri olan "İmprotex Aqrotexservis"in qeydiyyata alındıqdan 17 il sonra hansı səbəbdən ləğv edildiyi barədə məlumat yoxdur. MMC-dən bu barədə hələ ki, heç bir açıqlama verilməyib.

Xatırladaq ki, "İmprotex" 1991-ci ildə yaradılıb, daha çox "İmprotex Group" kimi tanınıb. Şirkətlər Qrupunun idarə heyətinin sədri F.Ələkbərov özü olub. O, holdinqi Dubaydan idarə edirmiş. Nazir postuna da yerini tutandan sonra o, şirkətə rəhbərliyi ailəsinə tapşırıb.

"İmprotex Group" əvvəlcə ölkə daxilində və keçmiş sovet respublikalarına turizm turları təşkil edib, sonradan biznesin müxtəlif sahələrində ciddi işlər qurub, BƏƏ, Çin, Türkiyə və digər xarici ölkələrdə nümayəndəliyi olan çoxşaxəli korporasiyaya çevrilib.

Füzuli müəllimin nazir olduğu dönəmdə isə "İmprotex Group" ölkədə sayılıb-seçilən holdinqlərdən idi, özəl sektorda aparıcı mövqelərdən birini tutmağa başlamışdı. O, dünyanın ən məşhur holdinqləri ilə əməkdaşlıq edir, müxtəlif sahələrdə tanınmış brendləri ölkə bazarına gətirirdi. Söhbət "BMW", "Rollce-Royce" kimi avtomobil markalarından, "Rexona", "Dove", "Axe" kimi dezodorantlardan; "Lux", "Dove" kimi maye və quru sabun brendlərindən, məşhur saça baxım vasitələri - "Sunsilk", "Dove", "Timotei" şampun və kremlərindən, məişət kimya brendləri olan "Domestos" və "OMO"dan, ağız boşluğuna baxım vasitələri - "Pepsodent", "Signal" kimi diş məcunları və diş fırçalarından gedir.

Lakin yuxarıda da qeyd etdiyimiz kimi, F.Ələkbərov nazir postunu itirdikdən sonra "İmprotex Group" uzun müddətli durğunluq dövrünü yaşadı. Son zamanlar isə holdinqin yenidən güclənməyə çalışdığı hiss olunur.

Bununla belə, o da maraqlıdır ki, ötən il "Improtex Group"a daxil olan 5 şirkət ( "İmair Aviakompaniyası" MMC, "İminteks-Tikinti Quraşdırma" MMC, "İmproteks-Prodakşn" kiçik müəssisəsi, "İmproteks-Kommers" kiçik müəssisəsi və "İmprotex Transexpress" MMC) də ləğv olunduğunu elan etmişdi.

***Toğrul Əliyev***

# Tahir Budaqov Vyetnam Kommunist Partiyasının Siyasi Bürosunun üzvü ilə görüşdü

***Vyetnamda səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti ilə Vyetnam Kommunist Partiyasının (VKP) Siyasi Bürosunun üzvü, Mərkəzi Komitəsinin Katibliyinin daimi üzvü və Təşkilat Komissiyasının sədri xanım Çionq Txi May arasında görüş keçirilib.***

"Unikal" xəbər verir ki, nümayəndə heyətini salamlayan Çionq Txi May Azərbaycanla Vyetnamın bir-birinin maraqlarına hörmət edən dost ölkə olduqlarını, çoxşaxəli münasibətlərin inkişafının məmnunluq doğurduğunu qeyd edib. O deyib ki, istər dövlətlər, istərsə də partiyalarımız arasında münasibətlərin inkişafına xüsusi diqqət yetirməsinin böyük önəm daşıdığını vurğulayıb.

YAP ilə VKP arasında əlaqələrin genişləndirilməsinin əhəmiyyətinə diqqət çəkən Çionq Txi May qeyd edib: "Əminəm ki, YAP-ın nümayəndə heyətinin ölkəmizə səfəri faydalı olacaq, hərtərəfli əməkdaşlığa stimul verəcək. Xüsusilə də bu səfər çərçivəsində partiyalarımız arasında əməkdaşlıq sazişinin imzalanması hər iki tərəf üçün yeni imkanlar yaradır. Ümid edirəm ki, bundan sonra da birlikdə addımlayaraq yeni uğurlar qazanacaq, dostluq münasibətlərimizin daha da möhkəmlənməsinə nail olacağıq".

Səmimi qəbula və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Tahir Budaqov tarixi köklərə əsaslanan Azərbaycan-Vyetnam münasibətlərinin konstruktiv xarakter daşıdığını, dostluq əlaqələrinin möhkəmlənməsi və əməkdaşlığın dərinləşməsi fonunda mühüm perspektivlər vəd etdiyini diqqətə çatdırıb. Azərbaycanın Cənub Qafqaz regionunda, Vyetnamın isə Cənub-Şərqi Asiyada aparıcı mövqelərə malik olduğunu söyləyən Tahir Budaqov hər iki ölkənin milli maraqlara və müasir çağırışlara əsaslanan siyasət həyata keçirməklə davamlı sosial-iqtisadi inkişafı təmin etdiyini bildirib. O, iqtisadi-ticari, mədəni-humanitar, təhsil, turizm, enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi, prioritet hədəflərin reallığa çevrilməsi üçün böyük potensialın olduğunu diqqətə çatdırıb. Ölkələrimiz arasında uzunmüddətli dostluq münasibətlərinin təməli xalqlarımızın öndərləri tərəfindən yaradıldığını xatırladan T.Budaqov deyib ki, müdrik dövlət xadimi Heydər Əliyev Azərbaycanın müstəqilliyinin bərpasından sonra ölkəmizə rəhbərlik etdiyi dövrdə də Vyetnam ilə münasibətlərin inkişafına ciddi diqqət yetirib.

YAP Sədrinin müavini müasir dövrdə Azərbaycan-Vyetnam münasibətlərinin tarixi ənənələrə söykəndiyini və yeni çağırışlar əsasında inkişaf etdiyini bildirib. Prezident İlham Əliyevin 2014-cü ildə Vyetnama, Vyetnamın ozamankı Prezidenti Çionq Tan Şanqın 2015-ci ildə Azərbaycana səfərini xatırladan YAP Sədrinin müavini deyib: "Heydər Əliyev siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev Vyetnamla əməkdaşlığın dərinləşdirilməsinə xüsusi diqqət yetirir. İki ölkənin fəal siyasi dialoqu tərəflər arasında çoxşaxəli işbirliyinin dərinləşməsini şərtləndirir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Biz ikitərəfli əlaqələrimizin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi-ticari, mədəni-humanitar, təhsil və digər sahələrdə inkişafına böyük əhəmiyyət veririk". Dövlətlərimiz, eyni zamanda, beynəlxalq müstəvidə də bir-birinin maraqlarının müdafiəsinə böyük önəm verir, çoxşaxəli qarşılıqlı münasibətlərin milli mənafelər və beynəlxalq hüquq normaları əsasında inkişafını zəruri hesab edir".



Daimi təmasların istər ölkələr, istərsə də siyasi partiyalar arasında münasibətlərin inkişafına töhfə verdiyini diqqətə çatdıran Tahir Budaqov qarşılıqlı səfərlərin önəminə diqqəti cəlb edib, YAP ilə VKP arasındakı əlaqələrin Azərbaycan-Vyetnam münasibətlərinin mühüm tərkib hissəsi olduğunu söyləyib.

O, hər iki ölkənin parlamentləri arasında əlaqələrin möhkəmləndirilməsinin Azərbaycan-Vyetnam münasibətlərinin inkişafı baxımından önəmli olduğunu diqqətə çatdırıb.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində müasir texnologiyalardan istifadə etməklə genişmiqyaslı bərpa və yenidənqurma işlərinin aparıldığını bildirən YAP Mərkəzi Aparatının rəhbəri Vyetnam şirkətlərinin də bu prosesdə iştirakının arzuedilən olduğunu söyləyib. Tahir Budaqov yeni çağırışlar və reallıqlar fonunda Azərbaycan-Vyetnam münasibətlərinin uğurla inkişaf edəcəyinə əminliyini ifadə edib.

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

Azərbaycanın qazandığı nailiyyətlərin dost Vyetnam xalqını sevindirdiyini bildirən Çionq Txi May ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərinin əsasının Vyetnam xalqının Lideri Ho Şi Min və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulduğunu vurğulayıb. O bildirib ki, müasir dövrdə dövlət başçılarının diqqəti sayəsində inkişafa hədəflənən bərabərhüquqlu işbirliyinin gücləndirilməsi milli maraqlarımıza cavab verməklə uğurlu nəticələr vəd edir.

Çionq Txi May 2017-ci ilin sentyabrında Azərbaycanda səfərdə olarkən Prezident İlham Əliyevlə görüşünü məmnunluqla xatırlayıb və səfərin xoş təəssüratlarla yadda qaldığını diqqətə çatdırıb. O, Azərbaycan Prezidentinin həm ölkələrimiz, həm də partiyalar arasında hər bir təmas ümumi hədəflərimizə, ilk növbədə, münasibətlərin inkişafına yönəlib və əməkdaşlığın genişlənməsinə xidmət edir.

UNI-41_27 IYUI-QARA.qxd 11/23/2023 10:57 PM Page 10



# Toy oliqarxlarının cibimizə tutduğu toy....

## Şadlıq evlərində qiymətlər yenidən bahalaşdı - Şok rəqəmlər!

***2023-cü ilin oktyabr ayında şadlıq saraylarında sifarişlərin sayı 47.5 faiz artıb. Bu barədə yola salmaq üzrə olduğumuz həftə İqtisadi və Sosial İnkişaf Mərkəzindən (CESD) bildirilib.***

Qeyd edilib ki, sifarişlərin sayında artım məhərrəmlik ayından sonra artan tələblə bağlıdır.Eyni zamanda, şadlıq saraylarında oktyabr ayında qiymətlər nə az, nə çox, düz 8.2 faiz artıb. Xüsusən 40 manatadək olan menyularda qiymət daha çox bahalaşıb: 10.3 faiz.

Qiyməti 40-80 manatadək olan menyuların qiyməti 7.8 faiz yüksəlib. Dəyəri 100 manatdan çox olan menyuların qiymətində də 6.3 faiz artım qeydə alınıb.

Qeyd edək ki, 2023-cü ilin yanvar-oktyabr aylarında istehlak qiymətləri indeksi 2022-ci ilin yanvar-oktyabr aylarına nisbətən 110,2 faiz, o cümlədən, ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 111,4 faiz, qeyri-ərzaq məhsulları üzrə 109,5 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 109,1 faiz təşkil edib.

2023-cü ilin oktyabr ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,4 faiz, əvvəlki ilin oktyabr ayına nisbətən 103,9 faiz təşkil edib.

Beləliklə, aydın görünür ki, şadlıq evlərinin qiymətində son ilyarımda müşahidə olunan bahalaşma davam edib, üstəlik, qiymət artımı axır vaxtlar tamamilə intensivləşib.

Halbuki məhərrəmlikdən öncə belə bir tendensiya proqnozlaşdırılmırdı. Məsələn, iqtisadçı ekspert Xalid Kərimli avqust ayında yerli KİV-ə açıqlamasında bildirmişdi ki, məhərrəm ayından sonra şadlıq evlərində bahalaşma gözlənilmir. O, əlavə eləmişdi ki, ərzaq məhsullarında kifayət qədər bahalaşma olub: "Tədricən qiymətlərin stabilləşməsi, hətta bir qədər ucuzlaşması da gözlənilir. Restoranlar öz qiymətlərini kifayət qədər qaldırıblar, yeni qiymətlər səviyyəsinə adaptasiya ediblər. Həm də Dövlət Statistika Komitəsinin məlumatlarından anlaşılır ki, son aylar ərzaq qiymətlərində bir qədər azalma var".

Ekspert yay aylarında meyvə-tərəvəz qiymətlərində ucuzlaşma olduğunu xatırladıb: "Bu səbəbdən gözləmirəm ki, Məhərrəm ayı bitəndən sonra restoranlarda menyu qiymətini qaldırsınlar. Toy edənlərin sayı azalıb, bu səbəbdən ciddi rəqabət var. Restoranların qiymətləri süni şəkildə artırmaq imkanları məhduddur".

Lakin belə məlum olur ki, şadlıq evlərinin sahibləri - "toy oliqarxları" heç də bu cür düşünməyiblər və süni qiymət artımını davam etdiriblər.



Ən maraqlısı isə odur ki, şadlıq evlərində bahalaşma aramsız xarakter daşıdığı halda nə yemələrin, nə də xidmətin keyfiyyətində dəyişiklik var. Hətta bu baxımdan vəziyyətin getdikcə pisləşdiyi müşahidə olunur. Əksər şadlıq evləri süfrələri daha ucuz başa gələn toyuq mənşəli qidalarla "bəzəyirlər".

Bir müddət öncə isə DAİR Otellər və Restoranlar Assosiasiyasının İdarə Heyətinin sədri Samir Dübəndi yerli KİV-ə bildirmişdi ki, bəzi şadlıq sarayları süni qiymətin artırılmasına əl atırlar. Onlar çalışırlar ki, daha çox qazanc əldə etsinlər. Amma bu halda daha keyfiyyətli xidmətlərin göstərilməsinə diqqət yetirmirlər. Sitat: "Biz DAİR Otellər və Restoranlar Assosiasiyası olaraq şadlıq saraylarını ictimai iaşə sektorundan ayırmırıq. Qeyd etmək istərdim ki, şadlıq sarayları ilə işləmək çox çətindir. İcarəçilər dəyişir, biri gedir digəri gəlir. Görürük ki, bir neçə aydan sonra digər bir insan gəlir. Yəni, personal tez-tez dəyişir. Şadlıq saraylarında bizim toy məclislərinə dəvət olunan ofisiantlar özünüz bilirsiniz ki, onlar haradan toplanırlar. Ştatda olan işçi ya olmur, ya olsa da, çox az sayda olur. Bu da təbii ki, keyfiyyətli xidmətlərin göstərilməsinə birbaşa təsir göstərir. O günəmuzd işləyən insanlara da heç kəs nə təlim keçir, nə onları qayda-qanuna alışdırır, nə bir nizam-intizama öyrəşdirirlər. Yəni, bir qədər bəlli bir məsələdir. Bu insan gəlir bir gün işləyir, günün axırında pulunu alır, bir az çay pulu qazanır. Heç şadlıq sarayı bilmir ki, bu insan sabah yenə də qayıdacaqmı. Bəlkə də heç qayıtmayacaq. Burada da belə bir problemlər yaşanır".

Bir sözlə, "toy biznesi" bir çoxları üçün yalnız qazanc mənbəyidir: qida təhlükəsizliyi, keyfiyyətli qida və xidmət məsələsi onlar üçün ikinci planda dayanır. Əksər şadlıq saraylarının bu cür məsələlərdə arxayın davranmasının səbəbi üzərində isə çox baş sındırmağa dəyməz. Səbəb kifayət qədər aydındır: sözügedən obyektlərin çoxu müxtəlif məmurların ya nəzarəti, ya da himayəsi altındadır. Bu səbəbdən də onlar özlərini toxunulmaz sayır, nəticədə nə qiyməti bahalaşdırmaqdan çəkinirlər, nə də qidaların keyfiyyətini və müştərilərə xidməti özlərinə dərd edirlər...

***Sənan Mirzə***

# Nazir onları vəzifəyə təyin etdi

***Cahangir Cahangirov adına Xora bədii rəhbər təyin olunub.***



"Unikal" xəbər verir ki, bununla bağlı mədəniyyət naziri Adil Kərimli müvafiq əmr imzalayıb.

Əmrə əsasən, Təranə Əbülfəz qızı Yusifova Beynəlxalq Muğam Mərkəzinin tabeliyində fəaliyyət göstərən Cahangir Cahangirov adına Xorun bədii rəhbəri vəzifəsinə təyin olunub.

Nazirin digər əmri ilə Mustafa Aşurov Beynəlxalq Muğam Mərkəzinin tabeliyindəki Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestrinin baş dirijoru təyin olunub.

Xatırladaq ki, Baş nazir Əli Əsədovun bu ilin 31 oktyabr tarixində imzaladığı qərarla "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin S.Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestri və C.Cahangirov adına Xor ştat vahidləri ilə birlikdə Mədəniyyət Nazirliyinin tabeliyindəki Beynəlxalq Muğam Mərkəzinə verilib.

# "Yeni qaydalar pensiyalara əlçatanlığı artıracaq" - Deputat



***"Nazirlər Kabineti əmək pensiyalarının hesablanması qaydasına dəyişiklik edilməsi ilə bağlı qərar qəbul edib. Bu qərarla bir sıra sənədlərin pensiya müəyyənləşdirilən zaman təqdimatına ehtiyac yoxdur".***

Bunu "Unikal"a açıqlamasında deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, bəzi sənədlərdə yumşalmalar tətbiq olunur ki, bu da pensiyalara əlçatanlığı artıracaq:

"Eyni zamanda qərarla pensiya məbləğində 3 qat artımlar müəyyənləşən zaman bu mexanizmin ardıcıllığı müəyyən edilib. Bəzi hallarda pensiyanın minimum hissəsinin artırılması, həmçinin, yardımın pensiyaya əlavə olunması və indeksasiyası eyni vaxtda həyata keçirilir ki, bu zaman ardıcıllıq müəyyənləşir. Eləcə də artıq və ya az pensiya hesablanan zaman onların əvəzləşməsi və ödənilməsi məsələləri öz əksini tapıb. Bəzi hallarda vətəndaşın pensiyası az hesablanır və bu da həmin pensiyanın yenidən hesablanaraq vətəndaşa qaytarılmasını təmin edəcək. Yeni qaydalar pensiyalara əlçatanlığı artıracaq. Eyni zamanda pensiyanın hesablanması, eləcə də az hesablanmış pensiyaların yenidən pensiya məbləğinə əlavə edilərək artırılması müəyyənləşir. Bu, pensiyaçıların sosial təminatı baxımından vacibdir".

***Anar Kəlbiyev***

# Agentlik sədri qurumların fəaliyyətini yoxladı

***Aqrar Xidmətlər Agentliyinin sədri Sərdar Hacıyev Lənkəran, Astara, Lerik və Salyan rayonlarında yerləşən tabeli qurumların fəaliyyəti, həmçinin Laboratoriya, Ekspertiza və Sertifikatlaşdırma Mərkəzinin laboratoriyalarında görülən işlərlə tanış olub. İnzibati binalara və sort sınaq sahələrinə baxış keçirib, əməkdaşlarla görüşüb.***

"Unikal" xəbər verir ki, görüşlərdə sədr Sərdar Hacıyev aqrar sahəyə göstərilən dövlət dəstəyinin əhəmiyyəti və bu sahənin daha da inkişaf etdirilməsi üçün qarşıya qoyulan əsas hədəflər barədə məlumat verib. Heyvanlarda vaksinasiya tədbirlərinin vaxtında və keyfiyyətlə həyata keçirilməsi, mütəxəssislərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, fermerlərin bilik və bacarıqlarının artırılması məqsədilə yeni innovativ texnologiyalara dair maarifləndirici tədbirlərin aparılması, fermerlərə göstərilən xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılmasının əhəmiyyəti barədə danışıb.

Həmçinin, Sort Sınaq məntəqələrinin, Regional Təlim Mərkəzlərinin, laboratoriyaların fəaliyyətinin günün tələbləri səviyyəsində qurulması, şəffaflığın və vətəndaş məmnunluğunun təmin edilməsinin vacibliyi iştirakçıların nəzərinə çatdırılıb.

Sonda mütəxəssislərin gördüyü işlərə dair məlumatlar dinlənilib, səslənən təkliflər qeydə alınıb, mövcud çatışmazlıqların qısa müddətdə aradan qaldırılması üçün müvafiq tapşırıq və tövsiyələr verilib.

UNI-41_27 IYUI-QARA.qxd 11/23/2023 10:57 PM Page 11



# Cəlilabadda neçə nəfər qızılcaya yoluxub?



***Cəlilabadda qızılcaya yoluxan tələbələr evə buraxılıb.***

"Unikal" xəbər verir ki, bu barədə TƏBİB-dən məlumat verilib.

Məlumatda deyilir ki, 2005-ci il təvəllüdlü (cinsi kişi), 2004-cü il təvəllüdlü (cinsi kişi), 2003-cü il təvəllüdlü (cinsi kişi) Cəlilabad rayon sakinləri müxtəlif tarixlərdə (müvafiq olaraq 15.11.2023-cü il, 23.10.2023-cü il, 04.11.2023-cü il) Cəlilabad Rayon Mərkəzi Xəstəxanasına müraciət ediblər.

Pasiyentlər ilkin tibbi yardım göstərilərək izoliasiya şəraitində ambulator müalicə üçün evə buraxılıb. Pasiyentlərin vəziyyəti mütəmadi olaraq nəzarətdə saxlanılıb.

Mətbuatda yayılan məlumata görə, Cəlilabad Rayon Mərkəzi Xəstəxanasına qızılca xəstəliyi ilə bağlı ümumilikdə 10 nəfər müraciət edib. Onların hər biri ambulator şəraitdə müalicə alınması üçün evə buraxılıb. Rayonda epidemioloji vəziyyət stabildir.

# Filarmoniyaya direktor təyin olundu



***Gəncə Dövlət Filarmoniyasına direktor təyinatı olub.***

"Unikal" xəbər verir ki, bu barədə Mədəniyyət Nazirliyindən bildirilib.

Qeyd edilib ki, mədəniyyət naziri Adil Kərimlinin müvafiq əmri ilə Əməkdar artist, opera müğənnisi, dirijor Ramil Adıgözəl oğlu Qasımov Gəncə Dövlət Filarmoniyasının direktoru təyin olunub.

Xatırladaq ki, R.Qasımov 2015-ci ildən Azərbaycan Televiziyası "Mədəniyyət" kanalının direktoru olub. 2020-2022-ci illərdə isə Heydər Əliyev Sarayının direktoru vəzifəsində çalışıb.

# UNESCO Əcəmi Naxçıvaninin 900 illik yubileyini qeyd edəcək



***Azərbaycanın görkəmli memarı Əcəmi Naxçıvaninin 900 illik yubileyi UNESCO çərçivəsində qeyd ediləcək.***

"Unikal" xəbər verir ki, bu barədə UNESCO üzrə Azərbaycan Milli Komissiyası məlumat yayıb.

Bildirilib ki, UNESCO-nun Baş Konfransının 42-ci sessiyasında qəbul edilən qərara əsasən, Əcəmi Naxçıvaninin 900 illik yubileyi 2024-2025-ci illər ərzində UNESCO çərçivəsində qeyd olunacaq yubileylər siyahısına daxil edilib. Qeyd edək ki, XII əsrdə Naxçıvanda doğulan və yaşayan Ə.Naxçıvani Naxçıvan memarlıq məktəbinin banisi və bir çox memarlıq əsərlərinin müəllifidir. Ona ən çox şöhrət gətirən isə Mömünə Xatun, Yusif ibn Küseyir türbəsi və Naxçıvandakı Cümə məscididir.

# "Avroviziya 2024" biletləri bu qiymətə satılacaq

***68-ci "Avroviziya" mahnı müsabiqəsi İsveçin Malmö şəhərində keçiriləcək.***

"Unikal" xəbər verr ki, müsabiqənin biletləri noyabrın 28-i yerli saatla 10:00-da satışa çıxarılacaq. Biletlərin qiyməti 145 İsveç kronu (təxminən 24 manat) olacaq. Yarışın keçiriləcəyi ümumilikdə 9 gün üçün nəzərdə tutulan biletləri ticketmaster.se saytından əldə etmək mümkün olacaq.

Biletin günündən və kateqoriyasından asılı olaraq qiymət 145-3795 İsveç kronu (24-619 manat) arasında dəyişəcək.

"Avroviziya-2024" mahnı müsabiqəsinin birinci və ikinci yarımfinalları 7 və 9 may, finalı isə 11 may tarixlərində keçiriləcək.

# Gömrük komitəsindən vətəndaşlara xəbərdarlıq

***Bir sıra kütləvi informasiya vasitələrində Türkiyə ilə sərhəddə yerləşən "Sədərək" gömrük postundan "e-növbə" və "Sürətli keçid" xidmətlərindən istifadə etməklə nəqliyyat vasitələrinin növbəsiz keçidinin təmin olunması müqabilində gömrük əməkdaşları tərəfindən qeyri-qanuni vəsaitlərin alınmasına dair həqiqətə uyğun olmayan məlumatlar yayımlanıb.***




Dövlət Gömrük Komitəsindən (DGK) "Unikal"a bildirilib ki, gömrük-sərhəd buraxılış məntəqələrinin fəaliyyətinin daha da təkmilləşdirilməsi və sərhədkeçmə zamanı şəxslərin və nəqliyyat vasitələrinin növbədə durmaqla vaxt itkisinə yol verməməsi, fiziki növbənin azaldılması və sürətli keçidin təmin edilməsi üçün 23 avqust 2019-cu il tarixində "Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində şəxslərin və nəqliyyat vasitələrinin sürətli keçidinin idarə olunması üzrə Texnoloji Sxem"i təsdiq edilib. Texnoloji sxemə əlavə edilmiş razılaşma protokoluna əsasən, dövlət sərhədindən buraxılış məntəqələrində "e-növbə" və "Sürətli keçid" xidmətlərinin tətbiqinə başlanıb.

Nəqliyyat vasitəsinin növündən, yükün xüsusiyyətindən və sürücü daxil olmaqla sərnişinlərin sayından asılı olaraq əvvəlcədən Dövlət Gömrük Komitəsinin rəsmi internet səhifəsi, "Smart Customs" mobil tətbiqi üzərindən qeydiyyatdan keçməklə yuxarıda qeyd olunan xidmətlərdən istifadə etmək mümkündür. Xidmətlərdən faydalanmaq üçün tələb olunan ödənişlər nağdsız şəkildə onlayn qaydada həyata keçirilir. Ödənişin nağd qaydada həyata keçirilməsi isə, ümumiyyətlə texniki olaraq mümkün deyil.

# "Dərnəgül" bazarındakı sahibkarlara ödəniş olunmayacaq - RƏSMİ

***Paytaxtın Ziya Bünyadov prospektində yerləşən və "Taxta bazarı" kimi tanınan inşaat materialları bazarında baş verən yanğın hadisəsinin sığorta tərəfi ilə əlaqədar Azərbaycan Sığortaçılar Assosiasiyası olaraq araşdırma aparılıb.***

Bu barədə Assosiasiyadan məlumat verilib. Bildirilir ki, yanğın baş verən ərazi açıq məkan olduğu üçün burada Daşınmaz əmlakın icbari sığortası yox, Əmlakların yanğından və digər risklərdən sığortası növü aktualdır.

"Bununla əlaqədar olaraq bildirmək istəyirik ki, əldə etdiyimiz ilkin məlumatlara görə, bazarda mövcud olan daşınar əmlakların sığortası olmayıb. Əmlakların yanğından və digər risklərdən sığortası növünün könüllü sığorta növü olduğunu nəzərə alsaq, mövcud bazardakı mal və materialların sığortasının olmaması bir neçə səbəbdən qaynaqlana bilər. Burada ya sahibkarların sığortaya biganə yanaşması, ya da sahibkarlar tərəfindən sığortalanmaq üçün lazımi tələblərə riayət olunmaması halları kimi amillər başlıca səbəb ola bilər.

Hər bir halda bu kimi hadisələr bir daha onu göstərir ki, daşınmaz və daşınar əmlakların sığortası bu kimi hallar nəticəsində yarana biləcək maddi itkini qarşılamaq üçün nəzərdə tutulub və vacib əhəmiyyətlidir.

Bildirmək istəyirik ki, daşınmaz əmlakın icbari sığortası hər bir əmlak sahibi üçün məcburidir. Burada yaşayış əmlakları üçün tariflər Bakı şəhərinə münasibətdə 50 manat, təminat məbləği 25 min manata qədər, Sumqayıt, Gəncə Naxçıvan şəhərlərinə münasibətdə tariflər 40 manat, təminat məbləği 20 min manata qədər, digər şəhər və rayonlara münasibətdə isə tariflər 30 manat, təminat məbləği isə 15 min manat qədərdir.



Qeyri-yaşayış əmlakları üçün isə tariflər müvafiq əmlakın yeri, həcmi və təyinatı nəzərə alınmaqla hesablanır.

Əmlakların yanğından və digər risklərdən sığortası növü könüllüdür və xüsusilə daşınar əmlaklara şamil edilir. Burada başlıca tələb sığortalanan daşınar əmlakın müvaifq sənədlərinin qaydasında olmasından ibarətdir. Onu da vurğulamaq istəyirik ki, əmlak sahibləri daşınmaz əmlaklarını sığorta etdirərkən bu sığorta növü ilə təminat məbləğlərini artıra da bilərlər", - açıqlamada deyilir.

# Ekologiya və təbii sərvətlər naziri Şəmkirdə vətəndaşları qəbul etdi

***Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, 23 noyabr 2023-cü il tarixində ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Şəmkir şəhərində yerləşən Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.***



"Unikal" xəbər verir ki, qəbuldan əvvəl nazir və Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Görüş zamanı ətraf mühitin mühafizəsi, meşələrin qorunması, biomüxtəliflik, mineral xammal, işlə təminolunma və digər məsələlərlə bağlı vətəndaşların müraciətləri dinlənilib. Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərlərinin isə araşdırılaraq zəruri tədbirlərin görülməsi üçün Nazirliyin məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını bildirərək, onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

## 5.3.11. regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Bu ilin ötən dövründə regionlarda 9 min nəfərdən çox iş yerləri yaradılıb

## İqtisadiyyat Nazirliyi: "Regionların sosial-iqtisadi inkişafı ilə bağlı görülmüş tədbirlər Dövlət Proqramı çərçivəsində ilin sonunadək davam etdiriləcək"



***Regionların sosial-iqtisadi inkişafının təşviqi ilə bağlı həyata keçirilən tədbirlər nəticə verməkdədir. Xüsusən də yerlərdə sahibkarlığın inkişafı istiqamətində bir sıra layihələr icra olunub ki, bu da dövlətin iqtisadi inkişaf istiqamətindəki siyasətinin səmərəliliyini ortaya qoyur.***

İqtisadiyyat Nazirliyindən "Unikal"a verilən məlumata görə, Sahibkarlığın İnkişafı Fondu tərəfindən regionlarda fəaliyyət göstərən sahibkarlara güzəştli kreditlərlə maliyyə dəstəyinin göstərilməsi davam etdirilib. Belə ki, 2023-cü ilin 6 ayı ərzində müvəkkil kredit təşkilatları vasitəsilə respublikanın regionları üzrə 934 investisiya layihəsinin maliyyələşdirilməsinə 42,2 milyon manat güzəştli kredit verilib.

Regionlara özəl investisiyaların cəlb edilməsini artırmaq məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 yanvar tarixli Fərmanı ilə təsdiq olunmuş "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası"na uyğun olaraq investisiya təşviqi sənədinin verilməsi davam etdirilmiş və sahibkarlar müvafiq vergi güzəştləri və xaricdən gətirəcəkləri avadanlıqlara ƏDV və gömrük güzəştləri əldə ediblər. 2023-cü ilin 6 ayı ərzində 7 sahibkarlıq subyektinə 7 investisiya təşviqi sənədi təqdim olunub. İnvestisiya təşviqi sənədi təqdim edilmiş layihələrin reallaşması nəticəsində yerli istehsala 30,4 milyon manat investisiyanın yatırılması və 300 yeni iş yerinin açılması nəzərdə tutulur. Hesabat dövründə investisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara 132,1 milyon ABŞ dolları dəyərində texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün 313 təsdiqedici sənəd verilmiş və sahibkarlar tərəfindən idxalda tətbiq olunan vergi və rüsumlardan 30,1 milyon ABŞ dolları məbləğində güzəşt əldə edilib.

Dövlət proqramı çərçivəsində regionlarda sənayeləşmə siyasətinə uyğun olaraq sənaye parkları və məhəllələrinin fəaliyyətinin təşkili və genişləndirilməsi istiqamətində işlər davam etdirilib. Belə ki, 01.07.2023-cü il tarixinədək Sənaye Parklarında 74 rezident qeydiyyatdan keçmişdir ki, bunlardan 25 rezident artıq istehsal fəaliyyətinə başlayıb. Həmçinin rezidentlər tərəfindən 01.07.2023-cü il tarixinədək 6,96 milyard manat investisiya yatırılmış və 9000 nəfərdən çox iş yerləri yaradılıb. Sənaye Parkları üzrə 01.07.2023-cü il tarixinədək rezidentlər tərəfindən 9,8 milyard manat satış həyata keçirilib ki, bunun da 3,3 milyard manatı ixracın payına düşür.

Aqrar sektorun inkişafında mühüm əhəmiyyət kəsb edən aqroparkların və müasir iri fermer təsərrüfatlarının yaradılması istiqamətində işlər 2023-cü ilin 6 ayı ərzində də davam etdirilib. Belə ki, 01.07.2023-cü il tarixinədək 70 min hektar sahə üzrə 2-si dövlət, 20-si özəl olmaqla ümumilikdə 22 aqropark qeydiyyata alınmış və 53 rezidentə qeydiyyat şəhadətnamələri verilib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi vastəsilə mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün məsləhət və informasiya dəstəyinin göstərilməsi, startapların, ailə biznesinin, təşviqi, investorların cəlb edilməsi və maliyyə institutları ilə birgə əməkdaşlığın qurulması istiqamətində işlər həyata keçirilib.

AZPROMO vasitəsilə yerli məhsulların "Made in Azerbaijan" brendinin ölkə xaricində tanıdılması və ixracın stimullaşdırılması məqsədilə sahibkarlar müvafiq dəstək tədbirlərindən istifadə edərək xarici ölkələrdə keçirilən sərgilərdə iştirak ediblər.

Aqrar sektora dövlət dəstəyi çərçivəsində kənd təsərrüfatı istehsalçıları subsidiyalarla təmin edilmiş, həmçinin kənd təsərrüfatı texnikalarının güzəştli şərtlərlə satışı həyata keçirilib.

Ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayan nəqliyyat sektorunda həyata keçirilən genişmiqyaslı tədbirlər çərçivəsində avtomobil yollarının çəkilməsi və yenidən qurulması, körpülərin tikintisi, regionlarda yol şəbəkələrinin bərpası işləri də davam etdirilib. Ümumilikdə, 2023-cü ilin 6 ayı ərzində ölkə üzrə 115,5 km, o cümlədən regionlarda 100,0 kilometr respublika və yerli əhəmiyyətli avtomobil yolu tikilmiş və əsaslı təmir olunmuş, həmçinin regionlarda 322,3 km dəmir yolu xətti yenidən qurulmuş, 122 dəmir yolu tuneli və ya körpüsü tikilmiş və ya əsaslı təmir olunmuşdur.

Bölgələrin fasiləsiz elektrik enerjisi ilə təmin olunması, abonentlərə göstərilən xidmətin səviyyəsinin artırılması məqsədilə 2023-cü ilin 6 ayı ərzində regionlarda 2045,9 kilometr yeni elektrik xətləri çəkilib, 1077,0 kilometr elektrik xətləri əsaslı təmir olunmuş, 19 transformator quraşdırılmış, 6 yarımstansiya tikilmiş, 6 yarımstansiya əsaslı təmir edilib.

İstehlakçıların qaz təchizatının yaxşılaşdırılması və əhatə dairəsinin genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilib, 2023-cü ilin 6 ayı ərzində bu məqsədlə regionlarda 284,5 km qaz xətti çəkilmiş və ya bərpa olunub). Nəticədə hesabat dövründə 29 rayon və şəhərdə 12 yaşayış məntəqəsi və 23 yaşayış massivi təbii qazla təmin olunmuş, ölkə üzrə qazlaşma səviyyəsi (işğaldan azad olmuş ərazilər istisna olmaqla) 96,3 faizə, o cümlədən regionlar üzrə 94,1 faizə çatıb.

Kənd yerlərində torpaqların suvarma və meliorasiya təminatının yaxşılaşdırılması ilə bağlı tədbirlər həyata keçirilib, 2023-cü ilin 6 ayı ərzində kənd təsərrüfatı torpaqlarında 70910 paqonmetr kollektor-drenaj şəbəkəsinin, 62407 paqonmetr suvarma kanallarının tikintisi, bərpası və yenidən qurulması işləri həyata keçirilib.

Regionlarda sosial infrastruktur obyektlərinin, xüsusən də təhsil, mədəniyyət, gənclər və idman, tibb müəssisələrinin tikintisi, əsaslı təmiri və onların maddi-texniki bazasının müasir tələblərə uyğun qurulması işləri həyata keçirilmiş, 2023-cü ilin 6 ayı ərzində regionlarda 4 məktəb və 2 uşaq bağçası, 2 tibb müəssisəsi, 7 mədəniyyət obyekti tikilmiş və ya əsaslı təmir olunmuşdur.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı görülmüş tədbirlər Dövlət Proqramı çərçivəsində ilin sonunadək davam etdiriləcəkdir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Fuad Muradov Bişkekdə tədbirdə çıxış edib



***22 noyabr 2023-cü il tarixində Bişkek şəhərində Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin diaspor məsələlərinə məsul dövlət qurumlarının və təşkilat rəhbərlərinin 5-ci iclası keçirilib.***

"Unikal" xəbər verir ki, toplantının gündəliyinə üzv dövlətlərin diaspor qurumları və türk diasporları arasında koordinasiya və əməkdaşlığın gücləndirilməsi məsələləri daxil edilib. İclası giriş sözü ilə Qırğız Respublikasının əmək və sosial təminat naziri Gülnarə Batırova açıb və qonaqları salamlayıb.

Sonra TDT baş katibi Kubanıçbek Omuraliyev gündəlikdə olan məsələlər barədə ümumi məlumat verib, hazırda dünyada gedən mürəkkəb proseslərin diasporun fəaliyyətinə də birbaşa təsir etdiyini diqqətə çatdırıb.

Diaspor məsələlərinə məsul dövlət qurumları rəhbərləri arasında ilk çıxış edən Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov olub. O, gələn il TDT-nin yaranmasının 15 illiyi münasibətilə Naxçıvan şəhərində üzv dövlətlərin diaspor məsələlərinə məsul dövlət qurumlarının və təşkilat rəhbərlərinin görüşünün keçirilməsini, eləcə də TDT diaspor alimlərinin ümumi məlumat bazasının yaradılmasını təklif edib.

Tədbirdə Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

İclasda Xaricdə yaşayan Türklər və Əqrəba İcmaları Baş İdarəsinin sədri Abdullah Eren (Türkiyə), NAO Otandastar Fondunun prezidenti Abzal Saparbekuli (Qazaxıstan), "Vatandoşlar" İctimai Fondunun İdarə Heyətinin sədri Odilcan Sattarov (Özbəkistan), Xaricdə yaşayan Macar İcmaları məsələləri üzrə dövlət katibi Arpad Yanoş Potapi (Macarıstan) çıxış ediblər.

"Türk diasporunun 2022-2026-cı illər üzrə Birgə Fəaliyyət Strategiyası" müzakirə olunub və Azərbaycan nümayəndə heyətinin təklifləri müsbət qarşılanıb.

2024-cü ildə Naxçıvan şəhərində təşkil olunacaq TDT-nin 3-cü Diaspor İnstitusional Təcrübə Mübadiləsi Proqramı çərçivəsində TDT-nin yaranmasının 15 illiyi münasibətilə üzv dövlətlərin diaspor məsələlərinə məsul dövlət qurumlarının və təşkilat rəhbərlərinin görüşünün keçirilməsi qərara alınıb.

# İT və Onların Tətbiqi üzrə 2-ci beynəlxalq konfrans keçiriləcək

***3-25 aprel 2024-cü il tarixlərində Bakı şəhərində "İnformasiya Texnologiyaları və Onların Tətbiqi" üzrə 2-ci beynəlxalq konfrans (ITTA'2024) keçiriləcək.***

"Unikal" xəbər verir ki, konfrans AR Elm və Təhsil Nazirliyi, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti, AR Elm və Təhsil Nazirliyi İdarəetmə Sistemləri İnstitutu, İnformasiya Texnologiyaları İnstitutu, Polşanın Bydgoszcz Elm və Texnologiya Universiteti, Türkiyənin Ege Universiteti, Ukraynanın V.M.Qluşkov adına Kibernetika İnstitutu və Qazaxıstanın İnformasiya və Hesablama Texnologiyaları İnstitutunun təşkilatçılığı ilə keçiriləcək.

Beynəlxalq konfransın əsas məqsədi elmi tədqiqat müəssisələri, universitetlər, beynəlxalq təşkilatlar, dövlət və özəl sektorlardan olan nümayəndələri bir araya gətirərək informatika sahəsində mövcud elmi və praktiki problemlərin müzakirə edilməsidir.

Konfransın əsas elmi istiqamətləri aşağıdakılardır:

Tikinti və memarlıqda informasiya texnologiyaları (o cümlədən ağıllı bina, ağıllı kənd, ağıllı şəhər);

Süni intellekt və onun tətbiqləri;

Böyük verilənlərin emalı problemləri və üsulları;

Paralel hesablama;

Siqnalın işlənməsi problemləri və üsulları;

Mürəkkəb obyektlərin və proseslərin idarə edilməsində informasiya texnologiyaları;

İntellektual idarəetmə sistemləri;

İntellektual informasiya sistemləri;

Kompüter şəbəkələri və kibertəhlükəsizlik məsələləri;

Təhsildə informasiya texnologiyalarının tətbiqi.

Konfransın işçi dili: ingilis dili



# Ağdaşda kənd təsərrüfatı məhsullarının istehsalı artır

***2023-cü ilin on ayında Ağdaş rayonunda 1 min 711,1 hektar əkin sahəsindən 34 min 969,7 ton, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,5 faiz və ya 529,0 ton çox tərəvəz və bostan məhsulları toplanmışdır. İstehsal olunmuş tərəvəz və bostan məhsullarının arasında pomidor, xiyar və kələm əsas yer tutmuşdur. Mövsüm ərzində 35,8 hektar sahədə təkrar tərəvəz bitkiləri əkilmişdir. Tərəvəz və bostan məhsullarının istehsalı rayonun Xosrov, Şəmsabad, Cardam, Qaradağlı, Kotavan və Birinci Aral kəndlərində daha çox müşahidə olunur.***

İlin əvvəlindən Ağdaş rayonunda ümumi sahəsi 3 min 533,5 hektar olan meyvə bağlarından 33 min 808,4 ton məhsul istehsal olunmuşdur. Bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 8,8 faiz və ya 2 min 732,1 ton çoxdur. Meyvə bağlarının 1 min 467,5 hektarını xurma bağları təşkil edir. İndiyədək bağlardan 18 min 531,7 ton xurma, 4 min 779,9 ton alça, 3 min 959,1 ton nar, 2 min 305,0 ton heyva, 1 min 809,8 ton gilas, 568,4 ton gavalı və digər meyvələr istehsal olunmuşdur. Hazırda meyvə bağlarında məhsul yığımı davam edir. Meyvə istehsalı rayonun Yuxarı Ağcayazı, Dəhnəxəlil, Kükəl, Qolqəti, Aşağı Zeynəddin, Gürcuva və Birinci Aral kəndlərində daha çox müşahidə olunur.

Rayonda 01 noyabr tarixinə 2024-cü ilin məhsulu üçün 7 min 121,0 hektar sahədə dən və yaşıl yem üçün payızlıq bitkilər səpilmişdir. Hesabat dövründə buğda əkini 978,0 hektar, dən və yaşıl yem üçün arpa əkini isə 6143,0 hektar olmuşdur. Hazırda sahələrdə payızlıqların səpini davam edir. Rayon ərazisində təmiz herik şumu da daxil edilməklə cari ilin payızlıq əkinləri üçün 14 min 274,0 hektar şum qaldırılmışdır.

***Elşən Abdullayev,***
***Ağdaş Rayon Statistika İdarəsinin rəis müavini***

# Qızılcaya yoluxmuş 4 yaşlı uşaq öldü



***Kürdəmirdə qızılca diaqnozu ilə xəstəxanaya aparılan uşaq ölüb.***

"Unikal" xəbər verir ki, hadisə ötən gün səhər saatlarında baş verib.

Xeyli vaxtdır qızılcaya yoluxan və hərarəti düşməyən rayonun Qağacıllı kənd sakini, 2019-cu il təvəllüdlü Rüfət Qəribli xəstəxanaya gətirilərkən yolda dünyasını dəyişib.

Bildirilib ki, R.Qəriblinin valideynləri son günlər bir neçə dəfə onu xəstəxanaya aparıblar və ev şəraitində müalicə olunub.

Hazırda Kürdəmir Rayon Mərkəzi Xəstəxanasında qızılcaya yoluxmuş 9 uşağın stasionar şəraitdə müalicəsi davam etdirilir.

Faktla bağlı araşdırma aparılır.

# "SİMA İmza" tətbiqinin istifadəçi sayı 500 mini ötüb

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan "AzInTelecom" MMC-nin hazırladığı "SİMA İmza" mobil tətbiqinin istifadəçi sayı 500 mini ötüb.***

Azərbaycanda rəqəmsal transformasiyanı sürətləndirən "SİMA İmza" artıq ekosistemdə həm istifadəçilər, həm də xidmət təqdim edənlər üçün yeni qaydalar, yeni tələblər formalaşdırır. Biometrik həllərə, bulud texnologiyasına və süni intellektə əsaslanan, hüquqi olaraq əl imzasına bərabər olan "SİMA İmza" ilə hazırda 30-a yaxın qurum öz xidmətlərini rəqəmsallaşdırıb. SİMA rəqəmsal imza ilə 80-dən artıq dövlət elektron portalına giriş təmin edilib. Müxtəlif sahələr üzrə fəaliyyət göstərən 100-dən çox qurumla SİMA yeni nəsil rəqəmsal imzanın inteqrasiyası davam etdirilir.

Həmçinin "SİMA İmza" ilə artıq elektron imza əldə etmək üçün xidmət mərkəzlərindən asılılığa son qoyulub. Bununla da dünyanın istənilən nöqtəsində yaşayan və internetə çıxış imkanı olan hər bir Azərbaycan vətəndaşı və fərdi sahibkarlıq fəaliyyəti göstərən vətəndaşlarımız olduğu yerdən elektron xidmətlərdən yararlana bilir. Bu imkan vətəndaş məmnuniyyətinin artırılmasına, fərdlərin rəqəmsal hökumət konseptindəki rolunun daha da aktivləşməsinə və fərdi sahibkarlıq subyektlərinin fəaliyyətinin daha da sadələşməsinə təkan verir. Rəqəmsal xidmətlərə əlçatanlığı artıran rəqəmsal imzanın ölkəmizdə biznes proseslərini sürətləndirdiyi müşahidə olunur.

"SİMA İmza" həm vətəndaşlar, həm də xidmət təklif edənlər üçün bir sıra üstünlüklər təqdim edir:

Vətəndaşlar üçün pulsuzdur - "SİMA İmza" mobil tətbiqini yükləyib qeydiyyatdan keçən hər bir vətəndaş rəqəmsal imza sertifikatını ödənişsiz olaraq əldə edir.

Əl imzası ilə bərabərhüquqludur - "Elektron imza və elektron sənəd haqqında" Qanunun 3-cü maddəsinə əsasən, gücləndirilmiş elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. SİMA yeni nəsil rəqəmsal imza gücləndirilmiş imzadır.

Təhlükəsizdir - "SİMA İmza" biometriya, bulud, açıq açar və süni intellekt texnologiyası əsasında çalışır. Bu da imzalama prosesi zamanı kənar amillərin müdaxiləsinin qarşısını alır. Tətbiq həssas məlumatları qorumaq üçün ən müasir şifrləmə protokollarından və autentifikasiya mexanizmlərindən istifadə edir. "SİMA İmza" ilə imzalanmış sənədlər təkzibolunmazdır.

Əlçatandır - İnternetə çıxış olan istənilən yerdə, istənilən vaxt "SİMA İmza" tətbiqini mobil cihaza yükləmək və qeydiyyatdan keçmək mümkündür. Qeydiyyat üçün sadəcə şəxsiyyət vəsiqəsi kifayət edir və proses təxminən




1 dəqiqə ərzində yekunlaşır.

Xərclərə qənaət - İstənilən sistemə inteqrasiya oluna bilən "SİMA İmza" dövlət qurumları və maliyyə təşkilatları üçün istənilən sayda imzalama imkanı qazandırır. Maliyyə xərcləri azalır, vaxt itkisi aradan qalxır. Fiziki müraciətlərin qəbulu üçün əlavə işçi və kağız sənədlər saxlamağa, onları arxivləşdirməyə ehtiyac qalmır. Uzun və yorucu növbə proseslərini aradan qaldırır.

İstifadəçilər "Play Store" və ya "App Store" platformaları üzərindən "SİMA İmza" mobil tətbiqini yükləyib qeydiyyatdan keçməklə rəqəmsal imza sahibi ola bilərlər.

SİMA yeni nəsil rəqəmsal imza ilə bağlı daha ətraflı məlumatı www.sima.az saytından və "157" Zəng Mərkəzi ilə əlaqə saxlayaraq əldə edə bilərsiniz.

# Tənhalıq həyat keyfiyyətinə faydalı təsir göstərir - Araşdırma

***Gənc yaşda partnyorun olmaması insanın həyatının müxtəlif aspektlərinə müsbət təsir göstərə bilər.***

"Unikal" xəbər verir ki, bu barədə Niderlandın Fənlərarası Demoqrafik İnstitutunun psixoloqları və sosioloqları maraqlı tendensiya aşkar edən araşdırma aparıblar.

1000-dən çox böyüklər arasında aparılan araşdırma, 20 yaşlarında əlaqələrdən qaçan və ya tək yaşayan gənclərin, o yaşda artıq romantik münasibətlərdə olanlara nisbətən öz həyatlarından daha çox məmnun olduqlarını göstərib.

Təəccüblüdür ki, gənclikdə tənhalıq fərdlər arasında özünü inkişaf etdir-



mə və qazanc səviyyəsinin artması ilə əlaqələndirilirib. Bu araşdırma, sevgi münasibətlərindən qaçanların sonrakı illərdə özlərini daha xoşbəxt və daha uğurlu hiss etdiklərini təsdiqləyib.

İnstitutun baş araşdırmaçısı deyir: "Biz tapdıq ki, erkən yaşda subay olmaq həyatdan məmnunluq və özünü inkişaf etdirmə səviyyəsinin yüksəlməsinə səbəb ola bilər".

Ancaq qeyd etmək lazımdır ki, sonradan ailə həyatı quranlar da özlərini xoşbəxt hiss ediblər. Buna baxmayaraq, araşdırmalar göstərir ki, 20 yaşınızda tənhalıq şəxsi rifahınıza müsbət təsir göstərə bilər.

***Gülayə Mecid***

# Şəhid ailələri Nevşehir bölgəsini ziyarət ediblər

***"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Hava Yolları QSC və "Delil Travel" səyahət agentliyinin tərəfdaşlığı ilə 21-24 noyabr tarixlərində 20 şəhid ailəsi üzvünün qardaş Türkiyə Respublikasının Nevşehir bölgəsinə səfəri təşkil olunub.***

"Unikal" xəbər verir ki, səfərin əsas məqsədi Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin 100-cü ildönümündə və həmçinin Türkiyə Respublikasının quruluşunun 100-cü ilində qardaş Türkiyənin tarixi bölgələrini şəhid övladlarına tanıtmaq və xalqlarımız arasındakı əlaqələri daha da genişləndirməkdən ibarətdir.

Səfər çərçivəsində şəhid ailələri Nevşehir şəhərinin valisi Ali Fidan bəylə görüşüblər. Səmimi mühitdə keçən görüş zamanı Ali Fidan Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizi dərin ehtiramla yad edib və onların ailə üzvlərinə cansağlığı, övladlarına bol-bol uğurlar arzulayıb. Həmçinin səfər zamanı şəhid ailələri Türkiyənin şəhid ailələri dərnəkləri ilə də görüşlərdə iştirak ediblər. Bu görüşlər zamanı hər iki ölkənin şəhid ailələrinə dəstək göstərən təşkilatları arasında olan əlaqələrin və əməkdaşlığın daha da möhkəmlənməsinin əhəmiyyəti vurğulanıb.

Nevşehirdə səfərdə olan şəhid ailə üzvləri bölgənin tarixi və turistik guşələrini də ziyarət etmək şansı əldə ediblər. Onlar Kapadokyada Göreme Açıq



Hava Muzeyini, Nevşehir Qalasını, Derinkuyu yeraltı şəhərini və s. digər tarixi və turistik məkanları ziyarət edərək onlar barədə məlumat əldə ediblər.

UNI-41_27 IYUl-QARA.qxd 11/23/2023 10:57 PM Page 14



# Rayonlarda yeni su kanalları çəkilir



***Göyçayda yeni beton kanal çəkilib. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Göyçay Suvarma Sistemləri İdarəsi Göyçay rayonunda yaşayış məntəqələrini və əkin sahələrini sel sularından mühafizə etmək məqsədilə Göyçay çayında məcra təmizləmə və sahilbərkitmə işlərini davam etdirir.***

İdarə tərəfindən sel suları zamanı yaranmış çətinliklərin aradan qaldırılması və Cəyirli suvarma arxının müdafiəsi üçün məcra tənzimləmə işləri aparılıb və bu işlər buldozer vasitəsilə çay məcrasında yerinə yetirilir. Bundan başqa 2023-cü il ərzində suvarma suyunun maneəsiz axınını təmin etmək üçün 327 km məsafədə lildən təmizləmə işləri həyata keçirilib. O cümlədən Kürdşaban , Alpoud , Qızılağac, Hüngütlü, Mallı-Şıxlı, Hacıağabəyli, Ərəbşahverdi, Bəydövül, İnçə, Alxasafa, Dövranlı, Aşağı Qaraməryam və digər suvarma arxlarında lildən təmizləmə işləri aparılıb.

Göyçay rayonunda Göyçay Suvarma Sistemləri İdarəsi tərəfindən görülən meliorativ tədbirlər nəticəsində əkin sahələrinin suvarılması yaxşılaşıb. Bunun nəticəsi olaraq fermerlər bu il bol məhsul əldə ediblər.

Göyçayın Yeniarx kəndi ərazisində Yeniarx beton kanalının qurğularla birlikdə beton üzlüyə alınması işləri artıq yekunlaşıb. Buda əkin sahələrinin su təminatının yaxşılaşmasına, su itkilərinin qarşısının alınmasına kömək olub. Hazırda Bığır, Mirzəhüseynli, Şahsoltanlı, Çaxırlı suvarma arxlarında lildən təmizləmə işləri davam etdirilir. O cümlədən şəhər daxilindən keçən Mallı Şıxlı, Potu, Çərəkə, Qarabörk, Qəzyan və Şəhadət suvarma arxlarında lildən təmizləmə işləri aparılıb, qazılmış lil və digər çöküntülərin avtomaşınlarla daşınması təmin edilib. Həmçinin şəhərdaxilindən keçən suvarma arxlarında texnikanın işləməsi mümkün olmayan yerlərdə əl ilə lildən təmizləmə işləri yerinə yetirilib.

Qeyd edək ki, Göyçay rayonunun ümumi 26568 ha suvarılan əkin sahəsi var. Əkin sahələrinin suvarılması üçün 3 su mənbəyindən istifadə edilir. Bunlar Göyçay çayı, Yekəxana su anbarı və Yuxarı Şirvan kanalıdır. İdarə əkin sahələrini suvarma suyu ilə təmin etmək üçün 1722 km suvarma kanalından istifadə edir.

İmişlidə nov kanallar çəkilir. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyindən bildirilib ki, İmişli rayonunda mövsümə uyğun olaraq meliorativ tədbirlər aparılır. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin İmişli rayonunda yerləşən yerli idarəsi tərəfindən təsərrüfatdaxili suvarma və kollektor drenaj sistemlərinin lildən təmizlənməsi, hidrotexniki qurğuların təmiri, bərpası və yenidən qurulması, o cümlədən torpaq məcralı kanalların beton üzlüyə alınması işləri həyata keçirilir. Bundan başqa idarə tərəfindən su itkisinin qarşısının alınması, suyun maneəsiz olaraq su istifadəçilərinə çatdırılması üçün nov kanalların quraşdırılması işləri də aparılır. Bu işlər rayonun Ağammədli kəndinə xidmət edən kanalda davam edir. Ümumi uzunluğu 2300 metr olan kanalın əvvəlki illərdə 1340 metr nov kanalla əvəzlənib. Hazırda isə qalan 960 metrlik hissəyə nov kanallar düzülür.

Qeyd edək ki, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin İmişli rayonunda yerləşən yerli idarəsi İmişli rayonu ilə bərabər Füzuli və Neftçala rayonlarında da işlərini davam etdirir. Görülən işlər ardıcıllıqla yekunlaşdırılır. Nəticədə torpaqların şoranlaşmasının qarşısı alınır, su itkisi minimuma endirilir və əkin sahələrinin suvarılması yaxşılaşdırılır.

***Hüseyn***

# Qəhrəmanlar unudulmur...



***44 günlük İkinci Qarabağ müharibəsində Lənkəranın igid oğlanları Vətən torpaqlarının azadlığı naminə sözün əsl mənasında qəhrəmanlıq nümunəsi göstərblər.***

Azərbaycan xalqının tarixinə qeyrət, şərəf, hünər səhifəsi kimi yazılan haqq savaşımızda lənkəranlılar 67 şəhid veriblər. Burada kiçik də, böyük də onların hər birinin xatirəsini əziz tutmağı özlərinə ən müqəddəs borc bilir. Lənkəran eli üçün iftixar mənbəyi, qürur yeri olan Afərin Müqəddəs oğlu Qulamzadə, Ülfət Qabil oğlu Babazadə, Əflatun Mircahangir oğlu Fərəcov da torpağı qani ilə Vətən edən qəhrəmanlar sırasında dururlar. Bu, Vətən sevdalıların əbədiyyət adlı ulduzlu dünyasına qovuşduğu gündən üç il ötdü. Onlar cismən aramızda olmasalar da, milyonların ürəyində özlərinə əbədi məkan qurublar. Hər üç ölməz qəhrəmanın anım günündə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, icra aparatının rəsmi şəxsləri, rayon ictimaiyyətinin nümayəndələri və şəhid ailələrinin üzvləri şəhidlərin uyuduğu müqəddəs torpağı ziyarət edib, əziz xatirələrinə ehtiram əlaməti olaraq məzarları önünə gül dəstələri düzdülər.

Söhbət zamanı bildirildi ki, Afərin, Ülfət, Əflatun millətinə, Vətəninə olan sonsuz məhəbbətini ağır müharibə meydanlarında yağıya qan qusdurmaqla bir daha sübut etdilər. Ən ali, şərəfli olan şəhidlik zirvəsini yüksəlməklə öz xalqının mənliyini, kimliyini bütün dünyaya bildirdilər. Odur ki, 44 günlük Vətən müharibəsi Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazıldı.

Lənkəranın Mamusta kəndində dünyaya göz açan, ölümündən sonra Ali Baş Komandanın sərəncamları əsasında 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə, "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülən Afərin Müqəddəs oğlu şəhidlik şərbətini dadanda ömrünün 21-ci ilini yaşayırdı . Qəlbi Vətən eşqli igid döyüşçü müharibəyə qatıldığı gündən düşmənə qan uddurub. Neçə-neçə ölüm-dirim savaşından zəfərlə çıxıb. Axırıncı döyüş yeri Xocavənddə olub. Erməni dığaların onlarla canlı qüvvəsini, hərbi texnikasını məhv edib. Təəssüf ki özü də yağı gülləsinə tuş gəlib.

Həyatı dərk edən gündən əsas amalı millət, dövlət yolunda vicdanlı xidmət olan Ülfət Babazadə 2000-ci ildə Lənkəran rayonu, Daştatük kəndində anadan olub. O, 2019-cu ildə ordu sıralarında müddətli həqiqi hərbi xidmətə başlayıb. Əsgər Ülfətin vətənpərvərliyi, təlimlər zamanı qeyri-adi döyüş bacarıq və qabiliyyətləri, Vətənə, torpağa sədaqəti aydın şəkildə özünü göstərdiyi üçün o, Xüsusi Təyinatlı Qüvvələrin sırasında xidmətə göndərilib . Düşmənə nifrəti, qəzəbi isə Ülfətə daha da qüvvət verib. Vətən müharibəsi başlayanda cəbhəyə yollanıb, Kəlbəcər, Cəbrayıl, Füzuli və Şuşa uğrunda ağır əməliyyatlarda cəsarət nümayiş etdirib. Qısa ömrünə qəhrəmanlıq, mərdlik yazılan Ülfət Noyabrın 9-da, müharibənin son günündə, Şuşa döyüşləri zamanı şəhid olub. Bir müddət sonra doğma kəndində torpağa tapşırılıb. Qanı bahasına Vətəni alınmaz qalaya çevirən Lənkəranın igid oğlu ölümdən sonra dövlət tərəfindən "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", Xocavəndin, Kəlbəcərin "Şuşanın azadlığına görə medalları ilə təltif olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən ölümündən sonra "İgidliyə görə", "Vətən uğrunda", Laçının, Suqovuşanın azadlığı uğrunda medallarla təltif olunan Əflatun Fərəcov Lənkəranın Osakücə kəndində boya-başa çatıb. Dünyaya gəlib-getməyi cəmi 21 çəkdi. Qaldı ki, bu qısa ömür yolunda gələcək nəsillərə örnək olacaq bir tarix yazıb. Vətənə sevgi, düşmənə nifrət ruhunda formalaşan Əflatun doğma Azərbaycanın müqəddəs bir parçası olan Qarabağın işğalına qarşı həmişə barışmaz mövqe tutub. Əlinə silah alıb döyüş meydanda yağıya od qoymaq istəyi onu rahat buraxmayıb. Nəhayət, 2000-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda ön cəbhəyə yollanıb. 30 il əsir düşən əzəli yurd yerlərinin azad olunması istəyi ilə döyüşlərdə böyük şücaət göstərib, əzmlə vuruşub. Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azad olunmasında daha çox fərqlənib. Son nəfəsdə də "Vətən" deyib şəhadətə yetib.

***Zəfər Orucoğlu, AJB üzvü***

## Goranboy rayonunda tütün istehsalı artıb

***Kənd təsərrüfatında böyük potensiala malik, iqtisadi cəhətdən gəlirli sahələrdən hesab olunan tütünçülük həm də yeni iş yerlərinin açılması baxımından böyük əhəmiyyət kəsb edir.***

Son illər Goranboyda da tütünçülüyə maraq artıb. Cari məhsul ilində tütün istehsalından yüksək nəticə əldə olunub. Rayonun Zeyvə kəndində-2 ha, Şəfəq, Qaraçinar, Yenikənd və Qarqucaq kəndlərinin hər birində-1,5 ha olmaqla, ümumilikdə 8 hektar sahədə becərilən tütün sahələrindən 17,0 ton quru məhsul aidiyyəti üzrə təhvil verilib. Bu isə, ötən ilin məhsulundan 5,0 ton yüksək nəticədir.

***Goranboy rayon Statistika İdarəsi***

## 2023-cü ilin 9 ayında Yevlax şəhəri üzrə "Əmtəə bazarı haqqında" statistika

***2023-cü ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət dövriyyəsinin həcmi 401163,5 min manat olmuş və keçən ilin müvafiq dövrü ilə müqayisədə faktiki qiymətlərlə 7,0 faiz artmış, müqayisəli qiymətlərlə isə 3,9 faiz azalıb.***

2022-ci ildə ölkə üzrə pərakəndə ticarət dövriyyəsində Yevlax rayonu üzrə pərakəndə ticarət dövriyyəsi 0,98 faiz təşkil edib.

2023-cü ilin oktyabr ayının 1-i vəziyyətinə 150 fərdi sahibkarın və 410 fiziki şəxsin məşğul olduğu 9200 kv.m sahəsi olan 560 yerinə malik ərzaq və qeyri ərzaq malları bazarı fəaliyyət göstərir.

Pərakəndə ticarət dövriyyəsinin quruluşunda ərzaq malları, içkilər və tütün məmulatlarının xüsusi çəkisi 53,3 faiz, və ya 213811,5 min




manat, qeyri-ərzaq mallarının xüsusi çəkisi 46,7 faiz, və ya 187352,0 min manat olub.

***Mehriyyə Vəliyeva,***
***Yevlax Şəhər Statistika İdarəsinin aparıcı məsləhətçisi***

UNI-41_27 IYUI-QARA.qxd 11/23/2023 10:57 PM Page 15



# "Jurnalistlərin işi çox təhlükəlidir" - Peskov



***"Ukrayna Silahlı Qüvvələrinin hücumu zamanı yaralanan "Rossiya-24" telekanalının müxbiri Boris Maksudovun ölümü bir daha müharibə müxbirlərinin işinin nə qədər təhlükəli olduğunu göstərdi".***

"Unikal" xəbər verir ki, bunu Kremlin mətbuat katibi Dmitri Peskov jurnalistlərə açıqlamasında deyib.

Kreml rəsmisi xatırladıb ki, Maksudov Ukrayna hərbçilərinin əli ilə ölən ilk rusiyalı jurnalist deyil.

# Ukraynada "Rossiya 24" telekanalının müxbiri həlak olub



***Ukrayna Silahlı Qüvvələrinin hücumu nəticəsində yaralanan "Rossiya 24" telekanalının jurnalisti Boris Maksudov dünyasını dəyişib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya mətbuatı məlumat yayıb.

"Faciəli xəbər indicə gəldi: həmkarımız Boris Maksudov aldığı xəsarətlərdən öldü, uşaqlar onun həyatı üçün mübarizə apardılar, dünən ağır yaralanmışdı", - deyə KİV-lərdən biri qeyd edib.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova da jurnalistin vəfatı ilə bağlı başsağlığı verib.

# Novak 60 nəfərlik heyətlə Ankaraya getdi

***Rusiya baş nazirinin müavini Aleksandr Novak Türkiyəyə səfər edib.***

"Unikal" "Sabah"a istinadən xəbər verir ki, 60 nəfərlik Rusiya nümayəndə heyəti Ankarada bir sıra görüşlər keçirəcək. Gündəmdə Türkiyənin təbii qaz mərkəzinə çevrilməsi məsələsi və taxıl müqaviləsi var.

# "Qəzza zolağında atəşkəs pozularsa..." - Netanyahu



***"İsrail hərbçiləri Qəzza zolağında atəşkəs rejiminin pozulacağı təqdirdə dərhal döyüş əməliyyatlarını bərpa etməyə hazırdır".***

"Unikal" xəbər verir ki, bunu İsrailin baş naziri Benyamin Netanyahu deyib.

"Biz ağıllı hərəkət edəcəyik və atəşkəs günləri bitdikdən sonra yenidən müharibəyə qayıdacayıq. Ola bilsin ki, biz bunu çox tez etməli ola bilərik, atəşkəşin pozulması ola bilər və biz qoyun kimi dayanmayacağıq. Biz Qəzzadan girovların qaytarılması planının gerçəkləşməsi üçün edilməsi lazım olanı edəcəyik, amma pozularsa, nə edəcəyimizi biləcəyik", o, mətbuat konfransında deyib.

# Britaniya XİN rəhbəri İsrailə getdi

***Böyük Britaniyanın yeni xarici işlər naziri Devid Kemeron İsrailə gedib.***

"Unikal" xəbər verir ki, bu barədə "The Times of İsrael" nəşri məlumat yayıb.

Bildirilir ki, bu, XİN rəhbəri seçiləndən sonra Kemeronun Yaxın Şərqə ilk səferidir.

# Paşinyan yeni parlament seçkiləri keçirmək istəyir?

***Ermənistanda gələn il növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı siyasi dairələrdə fəal söhbət gedir. Üstəlik, bu mövzu hakimiyyət tərəfindən gündəmə gətirilib.***



"Unikal" xəbər verir ki, bu barədə "Hraparak" qəzeti məlumat dərc edib.

"Bizə dedilər ki, Nikol Paşinyan "Mülki Müqavilə" partiyasının İdarə Heyətinin son iclaslarından birində növbəti dəfə hədələyib: əgər belə etsəniz, mən yeni seçkilər keçirəcəyəm, yenidən seçiləcəyəm, ölkənin indiki görkəmini tamamilə dəyişdirəcəyəm. Siyasi çevrələrdə istisna edilmir ki, Paşinyan bu dəfə daha inamlı danışa bilsin. Məsələ həm də siyasi meydanı gözlənilmədən ələ keçirmək və yeni müxalifət qüvvəsinə yetişmək şansı verməməkdir", - deyə KİV qeyd edir.

# "Aİ orduları yüksək intensivlikli münaqişəyə hazırlaşır" - Çexiya Prezidenti

***Çexiya prezidenti Petr Pavel Rusiyanı Avropa ölkələri üçün əsas təhlükə adlandırıb və bildirib ki, Aİ ölkələrinin orduları yüksək intensivlikli münaqişəyə hazırlaşır.***

"Unikal" RBC-yə istinadən xəbər verir ki, Çexiya rəhbəri bu barədə Vışeqrad dördlüyü (Çexiya, Slovakiya , Macarıstan və Polşa) prezidentlərinin görüşündə deyib.

Pavel bildirib ki, Ukraynadakı münaqişə səbəbindən Rusiya Silahlı Qüvvələrinin döyüş qabiliyyətini bərpa etmək üçün illər lazım olacaq. Bununla belə, Çexiya Prezidenti vurğulayıb ki, buna baxmayaraq, NATO dövlətləri hələ də Moskvanı "bir nömrəli təhlükə" kimi qəbul edirlər. Buna görə də bütün Avropa orduları qitədə yüksək intensivlikli münaqişə ehtimalına hazırlaşır.

Polşa prezidenti Anjey Duda öz növbəsində bildirib ki, ölkədə ordunun modernləşdirilməsi və



gücləndirilməsi proqramı artıq həyata keçirilir. Polşa prezidenti "potensial hücuma" yaxşı hazır olmağa çağırıb.

# Yeni baş nazir İslama və türklərə qarşı düşmənçiliyi ilə tanınır - KİV

***Niderlandın yeni baş naziri Geert Uilders Rusiyanın müttəfiqi ola bilər.***

"Unikal" xəbər verir ki, bu barədə Almaniyanın "Bild" nəşrinin jurnalisti Julian Roepke "X" sosial şəbəkəsindəki səhifəsində bildirib.

"Daha bir NATO dövləti Rusiyaya yaxınlaşa bilər. Putinə sadəcə oturub Ukraynaya dəstəyin getdikcə dağıldığını izləmək lazımdır", - Roepke yazıb.

Digər məlumata görə, Niderlandda qeyri-rəsmi nəticələrə görə seçkilərdə qalib gələn və yeni baş nazir olan Geert Uilders İslama və türklərə qarşı



düşmənçiliyi ilə tanınır. O, Türkiyənin NATO-dan çıxarılmasını tələb edir.

"X"də 1 milyon izləyicisi olan Uilders müsəlmanların dini bayramlarında da təxribatlar və hiddətə səbəb olan paylaşımlar edir. Nəhayət, ötən Qurban bayramında Uilders bir heyvanın kəsilməsi görüntüsünü yayımlayıb və öz paylaşımında "Mənfur İslam ənənəsini qadağan edin" deyərək yeni qalmaqal yaradıb.

Xatırladaq ki, noyabrın 22-də Niderlandda 26 partiyanın iştirakı ilə parlament seçkiləri keçirilib və bu seçkilərdə Geert Uildersin rəhbərlik etdiyi ifrat sağçı Azadlıq Partiyası ən çox səs toplayıb. Bu, siyasətçini baş nazir postuna ən şanslı namizəd elan edir.

# Alman polisi HƏMAS tərəfdarlarının evlərinə basqın edib

***Almaniya polisi HƏMAS terror təşkilatı və ona bağlı Samidun dərnəyi ilə əlaqəli fəalların evlərində və ofislərində axtarışlar aparır.***

"Unikal" "Der Spiegel"ə istinadən xəbər verir ki, axtarışlar Berlin, Şimali Reyn-Vestfaliya, Aşağı Saksoniya və Şlezviq-Holşteyn şəhərlərində aparılır.

Axtarışların əsas hədəflərindən biri hüquq-mühafizə orqanlarının məlumatına görə, ölkədə HƏMAS-a ən mühüm dəstək strukturu olan "Almaniyadakı Fələstin Cəmiyyəti" təşkilatıdır.

Anti-İsrail və antisemit Samidun şəbəkəsinin liderlərinin evlərində də axtarışlar aparılır.

Xatırladaq ki, noyabrın 2-də Almaniyanın daxili işlər naziri Nensi Feser HƏMAS terror təşkilatına hər hansı fəaliyyəti və dəstəyi tamamilə qadağan edən qaydaların qüvvəyə mindiyini açıqlamışdı. HƏMAS Avropa Birliyi tərəfindən terror təşkilatı elan edildikdən sonra Almaniyada böyük ölçüdə qadağan edilib. Yeni qaydalar həmçinin dəstək ifadələri də daxil olmaqla əlaqəli fəaliyyətləri qanundan kənarlaşdırır.

Almaniyada HƏMAS-ın fəal tərəfdarlarının sayının 450 nəfər olduğu təxmin edilir ki, onlardan 100-ə yaxını Berlindədir. Formal olaraq, onlar HƏMAS və digər məqsədlər üçün vəsait toplamaq üçün cəbhə rolunu oynayan müxtəlif xeyriyyə və dini təşkilatların üzvləridir.

**Səhifəni hazırladı: Gülayə Mecid**

UNI-41_27 IYUI-QARA.qxd 11/23/2023 10:57 PM Page 16



# AFFA kubok oyunlarındakı qayda pozuntuları ilə bağlı qərarları açıqladı



***AFFA İntizam Komitəsi növbəti iclasını keçirib.***

"Unikal" PFL-in saytına istinadən xəbər verir ki, iclasda Azərbaycan kubokunun 1-ci təsnifat mərhələsində keçirilən oyunlardakı qayda pozuntuları ilə bağlı qərarlar qəbul edilib.

Azərbaycan kubokunda 1-ci təsnifat mərhələsinin "Qusar" - "Şahdağ Qusar" oyununda "Qusar"ın 4 futbolçusu sarı vərəqə aldığına görə klub 70 manat cərimə edilib.

Azərbaycan kubokunda 1-ci təsnifat mərhələsinin "Göygöl" - "Dinamo" oyununun 84-cü dəqiqəsində "Dinamo"nun futbolçusu Yusif Cəfərov ikinci sarıdan qırmızı vərəqə aldıqdan sonra hakimləri təhqir etdiyinə görə 4 oyun cəzalanıb, klub 300 manat cərimə edilib.

Azərbaycan kubokunda 1-ci təsnifat mərhələsinin "Şəki Siti" - "Kür-Araz" oyununda "Şəki Siti"nin 5 futbolçusu sarı vərəqə aldığına görə klub 70 manat cərimə edilib.

"Şəki Siti" - "Kür-Araz" oyununun 87-ci dəqiqəsində "Şəki Siti"nin baş məşqçisi Firuddin Mövsümov meydançaya daxil olaraq hakimin qərarına etiraz etdiyinə görə birbaşa qırmızı vərəqə aldığı üçün 2 oyun cəzalanıb, klub 150 manat cərimə edilib.

"Şəki Siti" - "Kür-Araz" oyununun 90+5-ci dəqiqəsində "Kür-Araz"ın futbolçusu Elariz Xəlilli təcavüzkar davranışa görə birbaşa qırmızı vərəqə aldığı üçün 2 oyun cəzalanıb, klub 150 manat cərimə edilib.

"Şəki Siti" - "Kür-Araz" oyununa Təcili Tibbi Yardım avtomobili təyin edilmiş vaxtdan gec gəldiyinə görə "Şəki Siti" 100 manat cərimə edilib.

Azərbaycan kubokunda 1-ci təsnifat mərhələsinin "Şəfa" - "Şəmkir" oyununda "Şəfa"nın 7 futbolçusu sarı vərəqə aldığına görə klub 70 manat cərimə edilib.

"Şəfa" - "Şəmkir" oyununun 76-cı dəqiqəsində "Şəmkir" klubunun futbolçusu Elcan Rəhimov təcavüzkar davranışa görə birbaşa qırmızı vərəqə aldığı üçün 2 oyun cəzalanıb, klub 150 manat cərimə edilib.

Azərbaycan Kubokunda 1-ci təsnifat mərhələsinin "Şəfa" - "Şəmkir" oyununda xərəkdaşıyanlar olmadığına görə "Şəfa" klubu 80 manat cərimə edilib.

"Şəfa" - "Şəmkir" oyununa Təcili Tibbi Yardım avtomobili təyin edilmiş vaxtdan gec gəldiyinə görə "Şəfa" klubu 100 manat cərimə edilib.

# Canni De Byazi Kosovo millisinin baş məşqçisi ola bilər

***Azərbaycan millisi ilə yollarını ayıran Canni De Byazi Kosovo yığmasının baş məşqçisi ola bilər.***



"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, "Avro-2024"ün seçmə mərhələsindən sonra Primoj Qlixa ilə müqaviləni yeniləməyən Kosovo Futbol Federasiyası italiyalı mütəxəssisin xidmətində maraqlıdır.

De Byazinin özü də "SKY Sport 24" nəşrinə açıqlamasında yeni komanda axtarışında olduğunu gizlətməyib. Lakin o, danışıq apardığı federasiyanın adını açıqlanmayıb: "Ümid edirəm ki, təyinat reallaşacaq. Amma müqavilə imzalanana qədər bu barədə danışmamaq daha yaxşıdır".

Qeyd edək ki, AFFA İcraiyyə Komitəsinin qərarına əsasən, Canni De Byazinin noyabrın sonunda başa çatacaq müqaviləsi yenilənməyəcək.

# PFL Premyer Liqada iki oyunun saatını dəyişdi

***"Səbail"in ev oyunlarını keçirdiyi "ASCO Arena"nın elektrik təchizatında problem yarandığı üçün Misli Premyer Liqasının 14-cü turunun oyun cədvəlində dəyişiklik edilib.***

"Unikal" PFL-in saytına istinadən xəbər verir ki, "Səbail klubunun müraciəti əsasında "Kəpəz" PFL tərəfindən məlumatlandırılıb və əvvəlcədən saat 18:30-da (25 noyabr) başlanması nəzərdə tutulan oyunun 14:00-da başlanmasına qərar verilib.

Bundan əlavə, təşkilati məsələlər ilə bağlı 16-cı turun "Zirə" - "Araz Naxçıvan" (9 dekabr) oyununun starti saat 18:00-dan 17:00-a keçirilib.



# PSJ 80 milyon avroluq transfer etdi

***Fransanın PSJ klubu Qonçalo Ramosun transfer hüququna yiyələnib.***

"Qafqazinfo" xəbər verir ki, bu barədə klubun mətbuat xidməti məlumat yayıb. Bildirilib ki, Paris təmsilçisi 22 yaşlı forvard üçün Lissabon təmsilçisinə 65+15 milyon avro ödəyəcək.

Müqavilə 2028-ci ilin yayına kimi nəzərdə tutulub.

Qeyd edək ki, Q. Ramos PSJ-nin heyətində meydana çıxdığı 15 matçda 2 qol və 1 məhsuldar ötürmə edib.



# "Qalatasaray" ÇL öncəsi futbolçulara 4 milyon avro ödəyəcək

***"Qalatasaray" rəhbərliyi Çempionlar Liqasında "Mançester Yunayted"lə oyun öncəsi komandaya 4 milyon avro ödəyəcək.***

Bildirilib ki, rəhbərlik 1 həftə ərzində futbolçuların yığılmış borclarını verəcək. Komandaya ümumilikdə 4 milyon avro ödəniş etməklə klub oyunçuların matç öncəsi motivasiyasını artırmağı hədəfləyir.

Qeyd edək ki, "Qalatasaray" noyabrın 29-u "Mançester Yunayted"in qonağı olacaq. İstanbul təmsilçisi A qrupunda 4 xalla 3-cü, "Mançester Yunayted" 3 xalla 4-cüdür.

# Sarri bu addımına görə peşmandır

***"Çelsi"nin keçmiş baş məşqçisi Maurisio Sarri 2018/19 mövsümünün sonunda London klubunu tərk etdiyinə görə peşmandır.***



QOL.az "La Reppublica"ya istinadən xəbər verir ki, barədə o, öz açıqlamasında bildirib. Mütəxəssis həmin vaxt Premyer Liqa təmsilçisindən ayrılmış və "Yuventus"la müqavilə imzalamışdı. 64 yaşlı məşqçi bunun səhv qərar olduğunu etiraf edb:

"Yuventus"da məndən yalnız Çempionlar Liqasını qazanmağımı istədilər, mesaj dərhal aydın oldu. Skudettonu qazandım. Rəhbərlik oyun tərzini dəyişmək istəyirdi, lakin klubda qətiyyət yox idi. Bircə onu deyə bilərəm ki, "Çelsi"dən ayrılmaqda səhv etmişəm. İtaliyaya qayıtmaq mənim üçün səhv qərar idi".

Qeyd edək ki, italiyalı mütəxəssis 2019/20 mövsümündə "Yuventus"a rəhbərlik edib və A seriyasının qalibi olduqdan sonra vəzifəsindən qovulub.

# Mourinyo: "Yalnız mənim kimi çılğın biri "Real"ı tərk edə bilərdi"

***"Roma"nın baş məşqçisi Joze Mourinyo "Real"dakı həmkarı Karlo Ançelottinin Braziliya millisini çalışdıracağı ilə bağlı yayılan xəbərlərə münasibət bildirib.***

Qol.az İtaliya mətbuatına istinadən xəbər verir ki, o deyib:

"Düşünürəm ki, "Real" kimi böyük klubu ancaq mənim kimi çılğın adam tərk edə bilərdi. Təbii ki, işdən qovulmasanız. Bir vaxtlar klub rəhbərliyi qalmağımı istəsə də, "Real"dan ayrıldım. Əminəm ki, Karlo son anda fikrini dəyişəcək və Florentino Peres ona zəng edən kimi qalmağa qərar verəcək".

Qeyd edək ki, Karlo Ançelotti 2021-ci ildən "Real"ı çalışdırır.